# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 22 (3632) Cümə axşamı / 25 iyun - 1 iyul 2026-cı il Qiyməti 40 qəpik


MÜSAHİB

## Dəhlizin açılması qlobal tələbdir



**Sadiq Qurbanov,**
Milli Məclisin deputatı

*44 günlük Vətən müharibəsindən sonra regionda yaranan yeni reallıqların ən mühüm elementlərindən biri Zəngəzur dəhlizi layihəsidir. Son illərdə müxtəlif siyasi manevrlərə və beynəlxalq təzyiqlərə baxmayaraq, bu layihə regional nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası istiqamətində strateji təşəbbüs kimi gündəmdə qalmaqdadır. Azərbaycan Zəngəzur dəhlizini regional əməkdaşlıq və iqtisadi inteqrasiya layihəsi kimi təqdim etsə də, bəzi xarici güclər prosesə fərqli prizmadan yanaşırlar. Xüsusilə Rusiya və İranın məsələyə münasibəti, onların regiondakı maraqları və təsir imkanları dəhlizin reallaşması ətrafında müzakirələri daha da aktuallaşdırır.*

*Bu gün atılan bütün addımlar Cənubi Qafqazda qalıcı sülhün və tam nəqliyyat inteqrasiyasının təmin edilməsinə hesablanıb*

Səh. 3

# Qələbənin adı - Azərbaycan Ordusu



***İyunun 26-sı Azərbaycanda Silahlı Qüvvələr Günü kimi qeyd olunur. Bu tarix yalnız Milli Ordunun yaradılmasının ildönümü deyil, həm də ölkənin hərbi gücünün, müdafiə potensialının və təhlükəsizlik strategiyasının inkişaf yoluna nəzər salmaq üçün mühüm fürsətdir. Son illər regionda baş verən geosiyasi dəyişikliklər, yeni təhlükəsizlik çağırışları və hərbi-siyasi reallıqlar fonunda Azərbaycan Ordusunun modernləşdirilməsi və döyüş qabiliyyətinin artırılması dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi diqqət mərkəzində saxlanılır. Müstəqilliyin ilk illərində mürəkkəb sınaqlarla üzləşən Azərbaycan Silahlı Qüvvələri Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə peşəkar ordu quruculuğu mərhələsinə qədəm qoydu. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən ardıcıl islahatlar nəticəsində isə Ordunun maddi-texniki bazası gücləndirildi, müasir silah və texnologiyalarla təchizatı təmin olundu, şəxsi heyətin peşəkarlığı və döyüş hazırlığı əhəmiyyətli dərəcədə yüksəldi.***

2020-ci ildə 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfər, eləcə də 2023-cü ildə həyata keçirilən lokal antiterror tədbirləri Azərbaycan Ordusunun müasir döyüş imkanlarını, peşəkarlığını və yüksək hazırlıq səviyyəsini bütün dünyaya nümayiş etdirdi. Bu uğurlar uzun illər davam edən məqsədyönlü ordu quruculuğu siyasətinin real nəticəsi kimi dəyərləndirilir. Azərbaycan Silahlı Qüvvələri təkcə ölkənin ərazi bütövlüyünün və suverenliyinin etibarlı təminatçısı deyil, həm də regionun hərbi güc balansına təsir göstərən əsas faktorlardan biridir.

Bəs Ordumuzun bugünkü gücünü formalaşdıran əsas amillər hansılardır? Müasir silah və texnologiyaların, peşəkar hərbi kadrların və döyüş təcrübəsinin bu prosesdə rolu nədən ibarətdir?

■ **Milli Məclisin deputatı Aydın Mirzəzadə, ilk növbədə, müasir ordumuzun Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra real şəkildə qurulmağa başladığını önə çəkib.** Deputat müstəqilliyimizin ilk illərinə dönüş edərək, xatırladıb ki, 1991-ci ildə dövlət müstəqilliyimizi bərpa etsək də və dövlət qurumlarının formalaşdırılmasına başlasaq da, faktiki olaraq 1991-1993-cü illər arasında bu istiqamətdə çox zəif iş aparılıb. Onun sözlərinə görə, məhz Ulu Öndərin hakimiyyətə gəlişindən sonra nizami ordunun əsasının qoyulmasına imkan verildi. "Sonradan bu xətt Prezident İlham Əliyev tərəfindən davam etdirildi. Onun 2005-ci ildə səsləndirdiyi "Vaxt gələcək, qısa bir zamandan sonra Azərbaycanın hərbi büdcəsi Ermənistanın dövlət büdcəsinə bərabər olacaq" bəyanatı reallığa çevrildi", - deyə A.Mirzəzadə tarixi reallığa diqqət çəkib. O, qeyd edib ki, həm Ulu Öndərin, həm də cənab Prezidentin apardığı siyasət dünyanın ən güclü ordularından birinin qurulmasına, onun ən müasir silahlarla təchiz edilməsinə və şəxsi heyətin peşə hazırlığının yüksək səviyyəyə çatdırılmasına imkan verdi.

"Bu gün də ordumuzun müasir tələblərə cavab verməsi üçün dövlət tərəfindən çox ciddi və ardıcıl siyasət həyata keçirilir", - deyə deputat qeyd edib. A.Mirzəzadə onu da əlavə edib ki, Ordu dövlətin müstəqilliyinin və ərazi bütövlüyünün qorunması üçün mühüm əhəmiyyət daşıyır. Onun sözlərinə görə, hər bir gəncin Silahlı Qüvvələrdə qulluq etməsi, döyüş vəzifələrinə yiyələnməsi həm konstitusion, həm də həyati bir tələbdir.

"Azərbaycanda gənclərin hərbi-vətənpərvərlik istiqamətində tərbiyəsi sahəsində güclü iş aparılır. Bunun nəticəsidir ki, ölkəmizdə fərarilik halları demək olar ki, yoxdur. Hər bir gənc orduda xidmət etməyi özü üçün böyük şərəf hesab edir. Hərbçi peşəsi yüksək nüfuza malikdir və hərbi təhsil müəssisələrinə daxil olmaq istəyənlərin sayı durmadan artır.

Ordu, cəmiyyət və xalq birliyi möhkəmdir. Ordumuzun yeni silahlarla təchizatı, maddi-texniki təminatı və hərbi qulluqçuların maddi-sosial vəziyyətinin yaxşılaşdırılması üçün nə tələb olunursa, dövlət tərəfindən müvafiq büdcə vəsaiti ayrılır. Silahlar daim yenilənir. Azərbaycan Ordusu üçün ən müasir silahlar alınır, peşə hazırlığının və texniki hazırlığın artırılması istiqamətində müvafiq işlər görülür və bundan sonra da görüləcəkdir".

■ **Politoloq Rəşad Bayramov qeyd edir ki, Azərbaycan Ordusunun son illərdə keçdiyi inkişaf yolunu ölkəmizin təhlükəsizlik strategiyasının əsas istiqamətlərindən biri kimi qiymətləndirmək daha düzgün olar.** Onun sözlərinə görə, müstəqillik dövründə ordu quruculuğu prosesi mərhələli şəkildə həyata keçirilib və xüsusilə son onillikdə Silahlı Qüvvələrin texniki imkanları, döyüş hazırlığı, idarəetmə sistemi və peşəkarlıq səviyyəsində ciddi dəyişikliklər müşahidə olunub. Azərbaycan Ordusunun inkişafı yalnız silah və texnika ilə deyil, eyni zamanda müasir döyüş konsepsiyalarının mənimsənilməsi, hərbi kadrların hazırlanması və yeni əməliyyat yanaşmalarının tətbiqi ilə xarakterizə olunur. 44 günlük Vətən müharibəsi də faktiki olaraq bu inkişafın real sınağı oldu və ordunun hazırlıq səviyyəsini nümayiş etdirdi.

R.Bayramov qeyd edir ki, Ordunun güclənməsində bir neçə əsas amil xüsusi rol oynayıb. "İlk növbədə, uzunmüddətli və məqsədyönlü hərbi modernləşmə siyasəti, müdafiə büdcəsinin imkanları və müasir texnologiyalara çıxış mühüm əhəmiyyət daşıyır. Digər vacib faktor isə şəxsi heyətin hazırlığıdır.

Səh. 2

*"Bu gün də ordumuzun müasir tələblərə cavab verməsi üçün dövlət tərəfindən çox ciddi və ardıcıl siyasət həyata keçirilir*

*44 günlük Vətən müharibəsindən sonra Azərbaycan Silahlı Qüvvələrinin regiondakı mövqeyi və çəkisi əhəmiyyətli dərəcədə artıb*

*Azərbaycan Ordusu imtahandan ən yüksək səviyyədə keçərək işğal altında olan ərazilərini azad etməyi bacardı*

MÜSAHİB



**Əfşar Süleymani,**
İranın Azərbaycandakı keçmiş səfiri

■ Danışıqlar iki ay ərzində sülh sazişi ilə tamamlanmasa bəzi problemlərin yaranması mümkün ola bilər

■ Amerika İranın dondurulmuş vəsaitini Körfəzsahili ərəb ölkələrinə təzminat şəklində verəcəyini dedi, amma söz olaraq qaldı

■ Region ölkələri öz aralarında iqtisadi-siyasi-ticari əlaqələri gücləndirməlidirlər. Yalnız bu vəziyyətdə ölkələrimiz inkişaf edə və təhlükəsiz ola bilərlər

Səh. 5

GÜNÜN FOTOSU...



**Norveç yığmasının vikinq sevinci**

GÜNÜN SİTATI

*"Tehran müharibə dövründə dostunu və düşmənini tanıyıb, Azərbaycan İranın yanında olub"*



**Məhəmməd Baqir Qalibaf,**
İran İslam Şurası Məclisinin sədri

KARİKATURA




**Messi Avstriyaya qarşı**

## Nişanlanma, sürət hədləri və cərimələr

**Adil Nəbiyevin,**
nəqliyyat məsələləri üzrə ekspert

Bu cür ziddiyyətlər sürücülərin yol hərəkəti qaydalarını düzgün anlamaqda çətinlik çəkməsinə və nəticədə məcburi qayda pozuntularına yol açır.

Səh. 6

STATİSTİKA




■ **2026-cı ilin yanvar-may ayları ərzində Dövlət Sosial Müdafiə Fondunun fəaliyyət istiqamətləri üzrə ümumilikdə 192 029 vətəndaş müraciəti qeydə alınıb.**

Müraciətlərdən 76 480-i pensiya, 48 529-u müavinət, 7 305-i Prezident təqaüdü, 32 015-i ünvanlı dövlət sosial yardımı, 6 841-i fərdi uçot və sosial sığorta, 573-ü dövlət icbari şəxsi sığorta və 20 286-sı isə digər istiqamətlərlə bağlı olub.



## Demilitarizasiyadan hərbi yüksəlişə

Səh. 5

**XƏBƏR LENTİ**

# İƏT parlamentariləri Bakıda toplaşdılar



***İyunun 24-də Bakıda keçirilən İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının açılış mərasimi olub. Tədbirdə Azərbaycanın Dövlət Himni səsləndirilib, Qurani-Kərimdən ayələr qiraət olunub.***

Sonra Prezident İlham Əliyevin tədbir iştirakçılarına müraciəti Milli Məclisin sədri Sahibə Qafarova tərəfindən oxunub. Açılış mərasimində İslam Əməkdaşlıq Təşkilatının (İƏT) üzvü olan dövlətlərin Parlament İttifaqının sədrliyi İndoneziyadan Azərbaycana keçib.

İndoneziya Nümayəndələr Palatasının sədri Puan Maharani videomüraciətlə çıxış edərək təşkilatın ötən dövrdə üzv ölkələr arasında dialoqun, sülhün və davamlı inkişafın təşviqinə mühüm töhfələr verdiyini deyib.

O, konfransın yüksək səviyyədə təşkilinə görə Azərbaycan tərəfinə təşəkkürünü ifadə edib, sessiyanın məhsuldar müzakirələr və mühüm qərarlarla yadda qalacağına əminliyini bildirib və Azərbaycana təşkilata sədrlikdə uğurlar arzulayıb.

Sonra Milli Məclisin sədri, İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının sədri Sahibə Qafarova vurğulayıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, müsəlman ölkələri ilə həm ikitərəfli əsasda, həm də ortaq təşkilatlarımız çərçivəsində münasibətlərin inkişafı ölkəmizin xarici siyasətinin prioritet istiqamətlərindən biridir. İslam Əməkdaşlıq Təşkilatı (İƏT) və ona üzv dövlətlər ərazilərimizin işğalı dövründə, eləcə də münaqişədən sonra hər zaman Azərbaycanla həmrəy olduqlarını ifadə ediblər.

O bildirib ki, son 30 ildə İƏT və İƏT Parlament İttifaqı tərəfindən Ermənistanın təcavüzünü pisləyən, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləyən çoxsaylı qərarlar və qətnamələr qəbul edilib.

Milli Məclisin sədri qeyd edib ki, Azərbaycan İslam mədəniyyətini təşviq edən, İslamın sülh və mərhəmət dini kimi əsl mahiyyətini nümayiş etdirən çoxsaylı tədbirlər təşkil edib və təşəbbüslər irəli sürüb. İttifaqın baş katibi Muhammed Xurayçi Niyass İslam dünyasında dayanıqlı və inklüziv inkişafın təşviqi məqsədilə keçirilən konfransa göstərdiyi yüksək himayəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürünü bildirib. Baş katib vurğulayıb ki, bu, Prezident İlham Əliyevin İslam əməkdaşlığına verdiyi dəyərin bariz nümunəsidir. Eyni zamanda, Bakının bu cür genişmiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi üçün etibarlı və fəal rolunu bir daha nümayiş etdirir.

O qeyd edib ki, bu tədbir son dərəcə mürəkkəb bir dövrdə baş tutub. Beynəlxalq ədalət sistemində uçurum dərinləşir, İslam aləmi isə ciddi çağırışlarla üz-üzədir. Dağıdıcı müharibələr xalqları tükəndirir, qlobal ərzaq təhlükəsizliyinə və enerji təminatına birbaşa təsir göstərir. Bu səbəbdən münaqişə və müharibələrin bütün formalarının rədd edilməsi zəruridir. Fikir ayrılıqlarının həllində dialoqdan ən optimal vasitə kimi istifadə olunması vacibdir. Sonra sessiyanın gündəliyindəki məsələlərə baxılıb. Təşkilatın yeni büro üzvləri müəyyənləşdirilib. İƏT Pİ-də Azərbaycan nümayəndə heyəti rəhbərinin müavini Ceyhun Məmmədov sessiyanın məruzəçisi seçilib. Həmçinin təşkilatın baş katibinin hesabatı təsdiqlənib və digər məsələlər nəzərdən keçirilib.

Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş, İran İslam Respublikası İslam Şurası Məclisinin sədri Məhəmməd Baqer Qalibaf, Mozambikin Respublika Assambleyasının sədri Marqarida Talapa, İordaniya Haşimilər Krallığı Nümayəndələr Palatasının sədri Mazen Torki Əl-Qadi, Niger Məsləhət Şurasının sədri Mamoudu Haruna Cinqarey, Omanın Şura Məclisinin sədri Xalid Hilal Nasir Əl-Maavali, Qətər Dövlətinin Şura Məclisinin sədri Həsən bin Abdulla Əl-Qanim, Yəmənin Nümayəndələr Palatasının sədri Sultan Səid Əlbarkani, Şimali Kipr Türk Cümhuriyyəti parlamentinin sədri Ziya Öztürkler çıxışlarında qeyd ediblər ki, dünyada artan mürəkkəb çağırışlar və dərin dəyişikliklər fonunda artan bərabərsizliklər və qlobal problemlər dövlətlərin qarşısında yeni vəzifələr qoyur.

Belə bir şəraitdə parlamentlərin və parlamentarilərin rolu getdikcə daha da artır.

# Xəzərin iki sahilini birləşdirən tərəfdaşlıq

***Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun Azərbaycana dövlət səfəri, Füzuli və Şuşaya gedişi iki ölkə arasında strateji tərəfdaşlığın yeni mərhələyə yüksəldiyini göstərən mühüm siyasi hadisə kimi qiymətləndirilir. Siyasi şərhçi Bəhruz Quliyev bildirir ki, Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun Azərbaycana dövlət səfəri çərçivəsində Şuşa və Füzuliyə getməsi sadəcə protokol xarakterli səfər deyil, bu, çox ciddi siyasi məzmun daşıyan addımdır.***



> *Azərbaycan və Türkmənistan Xəzər hövzəsinin iki mühüm dövləti olaraq Avrasiya nəqliyyat xəritəsində xüsusi yer tuturlar*

> *Azərbaycan və Türkmənistan bu baxımdan Xəzərin iki sahilində yerləşən tamamlayıcı tərəfdaşlardır*

## Gündəm

Şuşa Azərbaycanın suverenliyinin, ərazi bütövlüyünün və tarixi ədalətin bərpasının simvoludur. Türkmənistan liderinin bu şəhərə səfəri Azərbaycanın Qarabağ üzərində tam suverenliyinə verilən açıq siyasi dəstək kimi qiymətləndirilməlidir. Eyni zamanda bu səfər göstərir ki, Azərbaycan-Türkmənistan münasibətləri ənənəvi dostluq çərçivəsindən çıxaraq strateji tərəfdaşlıq mərhələsinə daxil olub. Dövlət başçılarının qarşılıqlı etimadı və ortaq maraqları Xəzər regionunda yeni əməkdaşlıq imkanları yaradır:

"Azərbaycan azad edilmiş ərazilərdə həyata keçirdiyi genişmiqyaslı bərpa və yenidənqurma layihələrini xarici liderlərə təqdim etməklə beynəlxalq ictimaiyyətə çox mühüm mesaj verir. Bu mesaj ondan ibarətdir ki, Azərbaycan müharibədən sonra regionda sülh, inkişaf və əməkdaşlıq gündəmini həyata keçirir.

Qarabağda inşa olunan hava limanları, avtomobil yolları, yaşayış məntəqələri, enerji və kommunikasiya infrastrukturu dövlətimizin iqtisadi gücünü və idarəetmə imkanlarını nümayiş etdirir. Xarici dövlət başçılarının bu proseslə yerində tanış olması Azərbaycanın beynəlxalq nüfuzunu artırır, investisiya cəlbediciliyini gücləndirir və ölkəmizin regionun əsas inkişaf mərkəzi kimi mövqeyini möhkəmləndirir". B.Quliyev bildirir ki, Azərbaycan və Türkmənistan Xəzər hövzəsinin iki mühüm dövləti olaraq Avrasiya nəqliyyat xəritəsində xüsusi yer tuturlar. Hazırda Orta Dəhlizin əhəmiyyətinin artması fonunda Bakı və Aşqabad arasında əməkdaşlıq yeni mərhələyə keçir.

Nəqliyyat və logistika sahəsində Xəzər dənizi üzərindən yükdaşımaların artırılması, liman infrastrukturlarının inteqrasiyası və tranzit imkanlarının genişləndirilməsi əsas istiqamətlərdəndir.

Enerji sektorunda isə tərəflər həm ənənəvi enerji resursları, həm də yaşıl enerji layihələri üzrə əməkdaşlıq imkanlarını genişləndirə bilərlər: "Bu əməkdaşlıq təkcə iki ölkəyə deyil, bütövlükdə Türk dünyasına və Avrasiya məkanına əlavə iqtisadi dividendlər qazandıracaq. Azərbaycan artıq Şərqlə Qərbi birləşdirən mühüm logistika mərkəzinə çevrilib və Türkmənistan da bu prosesdə strateji tərəfdaş kimi çıxış edir. Sərdar Berdiməhəmmədovun Azərbaycana və xüsusilə Şuşaya səfəri Türk dünyasında inteqrasiyanın dərinləşdiyini göstərən mühüm siyasi hadisələrdən biridir. Bu gün Türk dövlətləri arasında iqtisadi, siyasi, humanitar və nəqliyyat əlaqələri sürətlə inkişaf edir. Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsləri və Türk Dövlətləri Təşkilatı çərçivəsində həyata keçirilən layihələr bu prosesə ciddi təkan verir.

Türkmənistanın da Türk dünyası ilə əməkdaşlığını genişləndirməsi ümumi inteqrasiya proseslərinə əlavə dinamika qazandırır. Şuşaya edilən səfər ortaq tarixə, mədəniyyətə və strateji maraqlara söykənən əməkdaşlığın daha da möhkəmləndiyini nümayiş etdirir. Bu baxımdan, səfər yalnız ikitərəfli münasibətlər kontekstində deyil, həm də Türk dünyasının vahid siyasi-iqtisadi məkan kimi formalaşması istiqamətində atılan növbəti mühüm addım kimi qiymətləndirilməlidir".

■ **Siyasi şərhçi Əkbər Qoşalı bildirir ki, Sərdar Berdiməhəmmədovun Şuşaya səfəri Azərbaycan-Türkmənistan münasibətlərində diplomatik jestdən daha çox, ortaq tarixi yaddaşın, mədəni köklərin və gələcək strateji hədəflərin təsdiqi kimi qiymətləndirilə bilər.** Şuşa artıq bütövlükdə Türk dünyasının mənəvi paytaxtlarından birinə çevrilməkdədir. Türkmənistan Prezidentinin bu şəhərə səfəri Azərbaycanın ərazi bütövlüyünə və Qarabağ üzərində suverenliyinə verilən açıq siyasi dəstəyin ifadəsidir:

Bu səfər həm də onu göstərir ki, Xəzərin iki sahilində yerləşən qardaş dövlətlər münasibətlərini enerji və ticarət müstəvisindən daha geniş geosiyasi, geokulturoloji müstəvidə inkişaf etdirmək niyyətindədir. Türk xalqlarının tarixi yaddaşı parçalanmır, əksinə, yenidən vahid mənəvi coğrafiyaya çevrilir.

Çağdaş geosiyasətdə daşımalar, dəhlizlər iqtisadi layihə olmaqdan çıxıb, strateji təhlükəsizlik və təsir alətinə dönüb. Azərbaycan və Türkmənistan bu baxımdan Xəzərin iki sahilində yerləşən tamamlayıcı tərəfdaşlardır. Orta Dəhlizin inkişafı fonunda Türkmənistan limanları ilə Azərbaycanın Bakı Beynəlxalq Dəniz Ticarət Limanı arasında işbirliyinin genişlənməsi Avrasiyanın yeni logistik xəritəsini formalaşdırır. Çin - Türkistan (Mərkəzi Asiya) - Xəzər - Azərbaycan - Türkiyə marşrutu getdikcə daha böyük önəm qazanır.

Enerji sahəsində isə işbirliyinin perspektivi yalnız karbohidrogenlərlə məhdudlaşmır. Gələcəkdə yaşıl enerji, elektrik enerjisinin ötürülməsi, Xəzər bölgəsinin vahid enerji əməkdaşlığı modeli kimi istiqamətlər də ön plana çıxa bilər.

Başqa sözlə, Bakı ilə Aşqabad arasında qurulan körpü Türküstan (Mərkəzi Asiya) ilə Avropanı birləşdirən strateji arteriyaya çevrilməkdədir".

*✍ Tahirə Qafarlı*

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303). "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "Zaman" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -1500

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Qələbənin adı - Azərbaycan Ordusu

◂ əvvəli 1-ci səhifədə

Məlumdur ki, müasir müharibələr artıq təkcə canlı qüvvənin sayına deyil, texnologiya, kəşfiyyat, dəqiq zərbə imkanları, çevik idarəetmə və peşəkar heyətə əsaslanır. Azərbaycan Ordusu da bu istiqamətlər üzrə inkişaf edərək yeni nəsil hərbi yanaşmalara uyğunlaşmağa nail olub. 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan Silahlı Qüvvələrinin regiondakı mövqeyi və çəkisi əhəmiyyətli dərəcədə artıb. Müharibə göstərdi ki, müasir hərbi imkanlar, düzgün planlaşdırma və əməliyyat çevikliyi nəticəyə birbaşa təsir edən amillərdir. Bu baxımdan Azərbaycanın əldə etdiyi hərbi nəticə Cənubi Qafqazda təhlükəsizlik balansına təsir edən əsas hadisələrdən biri kimi qiymətləndirilə bilər. Bununla yanaşı, postmüharibə dövründə ordunun qarşısında duran əsas vəzifələrdən biri əldə olunan təcrübəni qorumaq, yeni çağırışlara uyğunlaşmaq və müdafiə imkanlarını davamlı şəkildə inkişaf etdirməkdir.

Müasir geosiyasi şəraitdə güclü ordu dövlətin yalnız hərbi təhlükəsizliyinin deyil, həm də xarici siyasət imkanlarının mühüm elementidir. Güclü müdafiə qabiliyyəti ölkəyə regional proseslərdə daha inamlı mövqe tutmağa, milli maraqlarını qorumağa və mümkün təhdidlər qarşısında daha dayanıqlı olmağa imkan verir.

Bu baxımdan ordu həm də siyasi çəkini artıran amillərdən biridir. Belə ki, dövlətlərin beynəlxalq münasibətlərdə mövqeyi yalnız diplomatik imkanlarla deyil, eyni zamanda təhlükəsizlik potensialı ilə də müəyyən olunur", - politoloq deyir. R.Bayramov ordumuzun inkişafında mühüm istiqamətlərdən biri kimi Azərbaycanın Türkiyə hərbi əməkdaşlığını önə çəkib. Bildirib ki, iki ölkə arasında keçirilən birgə təlimlər, təcrübə mübadiləsi və hərbi hazırlıq proqramları Azərbaycan hərbçilərinin peşəkarlığının artırılmasına çox böyük təkan verib.

■ **Hərbi ekspert Ramil Məmmədli vurğulayır ki, ordu, silahlı qüvvələrin döyüş hazırlığı və peşəkarlığı barədə danışarkən onun keçdiyi yol və verdiyi imtahanlar əsas götürülür.**

Onun fikrincə, Azərbaycan Ordusunun 1991-1992-ci illərdən bu günə qədər keçdiyi mərhələli yola və həmçinin Silahlı Qüvvələrimizin 2020-ci ildə Vətən müharibəsində verdiyi "imtahanı" gözdən keçirərkən, ordunun bugünkü durumu müsbət qiymətləndirilməlidir. "Azərbaycan Ordusu imtahandan ən yüksək səviyyədə keçərək işğal altında olan ərazilərini azad etməyi bacardı. Bu, Azərbaycan Ordusunun hazırlığından, onun peşəkarlığından və döyüş bacarığından irəli gəlir. Mən bunu hər zaman qeyd edirəm. Silah və texnika bir çox ordularda var və müharibələrdə silah-texnika üstünlük qazanmağa əsas amillərdən, meyarlardan biri deyil. Döyüşçü hərbçinin, hərbi mütəxəssisin bilik və bacarığı, onun texnikanı müharibədə istifadə etmək qabiliyyəti burada əsas meyarlardan biridir"- ekspert əlavə edib.



> *Bütün bunlar Azərbaycan Ordusunun güclənməsinə, nəticə etibarilə isə Azərbaycan dövlətinin mövqeyinin möhkəmlənməsinə xidmət edir*

R.Məmmədli ordumuzun arsenalına daxil edilən müasir silah və texnologiyaların hərbi üstünlüyümüzə hansı imkanlar qazandırması məsələsinə diqqət çəkib və qeyd edib ki, ordunun üstünlük əldə etməsində bu amil inkar oluna bilməz.

"Əlbəttə ki, müharibələrdə müasir texnikaların və texnologiyaların istifadəsi uğur qazanmaqda əhəmiyyətli yerlərdən birini tutur. Burada artıq döyüşçünün, hərbçinin, hərbi mütəxəssisin bilik və bacarığı, peşəkarlığı müasir silah və texnologiyaya bərabərdir. Bu baxımdan Ordumuz müharibə dövründə və müharibədən sonrakı dövrdə müasir texnologiyaları, yəni dronların və pilotsuz uçuş aparatlarının inteqrasiyasını mənimsəməsi prosesini yüksək səviyyədə həyata keçirdi və müharibədən sonrakı dövrdə isə bunun yenilənməsi istiqamətində də mühüm addımlar atıldı. Azərbaycan Ordusunun arsenalında, həm müşahidəkəşfiyyat, həm zərbə, yəni kamikadze, həmçinin silahlı pilotsuz uçuş aparatları var ki, bu da ordumuza müharibə üstünlükləri qazandırır. Digər amil isə təbii ki, raket artilleriya sistemləri ilə bağlıdır.

Ordumuz həm vətən müharibəsindən əvvəl, həm də sonrakı dövrlərdə yeni raketlərin satın alınması və bunlardan istifadənin mənimsənilməsi istiqamətində də addımlar atıb. Silahlı Qüvvələrimizin arsenalında hədəflərə dəqiq zərbə endirmək imkanına malik raket və artilleriya sistemləri mövcuddur. Xüsusi təyinatlı qüvvələrin və komando birləşmələrinin inkişafına gəldikdə isə qeyd etmək lazımdır ki, Silahlı Qüvvələrimizin yenilənməsi istiqamətində atılan addımlar sırasında bu sahə də xüsusi yer tutur.

Məsələn, müharibədən əvvəl xüsusi təyinatlı qüvvələrin şəxsi heyətinin sayı ilə sonrakı dövrdəki şəxsi heyətin sayı arasında ciddi fərq var. Hazırda onların sayı artırılıb. Bundan əlavə, qoşunların tərkibində komando hərbi birləşmələri yaradılıb ki, bu da xüsusi əməliyyatların həyata keçirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Yəni həm xüsusi təyinatlı qüvvələr, həm də komando birləşmələri Ordumuzun yerüstü əməliyyatlarının həyata keçirilməsində mühüm rol oynayan hərbi strukturlardan biridir. Onların istifadəsində olan müasir silah və texnikalar da bu istiqamətdə qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsinə imkan yaradır.

Təbii ki, bütün bunlar Azərbaycan Ordusunun güclənməsinə, nəticə etibarilə isə Azərbaycan dövlətinin mövqeyinin möhkəmlənməsinə xidmət edir. Bu amillər ölkəmizin beynəlxalq danışıqlarda və diplomatik müstəvidə daha güclü mövqedən çıxış etməsinə şərait yaradır"-ekspert deyib.

R.Məmmədli bildirir ki, gələcəkdə Ordunun daha da inkişaf etdirilməsi istiqamətində atılan addımlar da bu siyasətin davamı kimi qiymətləndirilməlidir. Məsələn, yerli müdafiə sənayesi kompleksinin inkişafı və stimullaşdırılması məqsədilə dövlət tərəfindən dəstək göstərilir, bu sahəyə vəsait ayrılır. Eyni zamanda, inkişaf etmiş ölkələrin ordularının istifadə etdiyi müasir silah və texnikaların satın alınması, onların mənimsənilməsi və tətbiqi istiqamətində də işlər davam etdirilir.

"Görünən odur ki, Azərbaycan Ordusunun əsas prioritet istiqamətlərindən biri ölkənin hava hücumundan müdafiə sistemlərinin təkmilləşdirilməsi, raket sistemləri arsenalının genişləndirilməsi və daha müasir texnologiyalarla təchizatın gücləndirilməsidir.

Bununla yanaşı, peşəkar ordu modelinin inkişafı istiqamətində də müəyyən addımlar atılır. Əlbəttə ki, Azərbaycan tam şəkildə peşəkar ordu modelinə keçə bilməz, çünki regiondakı təhlükəsizlik şəraiti və geosiyasi reallıqlar bunu tam şəkildə mümkün etmir. Lakin peşəkar hərbi qulluqçuların sayının artırılması bu istiqamətdə vacib məsələlərdən biridir".

*✍ Tahirə Qafarlı*

# Dəhlizin açılması qlobal tələbdir

**_44 günlük Vətən müharibəsindən sonra regionda yaranan yeni reallıqların ən mühüm elementlərindən biri Zəngəzur dəhlizi layihəsidir. Son illərdə müxtəlif siyasi maneələrə və beynəlxalq təzyiqlərə baxmayaraq, bu layihə regional nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası istiqamətində strateji təşəbbüs kimi gündəmdə qalmaqdadır. Azərbaycan Zəngəzur dəhlizini regional əməkdaşlıq və iqtisadi inteqrasiya layihəsi kimi təqdim etsə də, bəzi xarici güclər prosesə fərqli prizmadan yanaşırlar. Xüsusilə Rusiya və İranın məsələyə münasibəti, onların regiondakı maraqları və təsir imkanları dəhlizin reallaşması ətrafında müzakirələri daha da aktuallaşdırır._**



**Sadiq Qurbanov,**
Milli Məclisin deputatı

## Müsahib

Bu şəraitdə əsas sual ondan ibarətdir ki, Zəngəzur dəhlizi artıq geridönməz xarakter alıbmı və layihənin tam reallaşmasına mane ola biləcək amillər nə dərəcədə effektivdir? Müsahibimiz Milli Məclisin deputatı Sadiq Qurbanovdur:

**_- Son prosesləri nəzərə alsaq, Zəngəzur dəhlizinin açılmasının artıq geridönməz xarakter aldığını söyləmək olarmı?_**

- Bəli, bu prosesin geridönməz xarakter aldığını qətiyyətlə demək olar. Azərbaycan 44 günlük Vətən müharibəsindən sonra regionda tamamilə yeni reallıqlar yaradıb və Zəngəzur dəhlizi bu reallığın ən mühüm elementlərindən biridir. Prezident İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, Ermənistan bunu istəsə də, istəməsə də, Zəngəzur dəhlizi mütləq açılacaq. Çünki bu, sadəcə Azərbaycanın istəyi deyil, qlobal miqyasda nəqliyyat-logistika xəritəsinin dəyişməsi və şaxələndirməyə olan ehtiyacla bağlıdır. Azərbaycan öz ərazisində bu dəhlizə inteqrasiya olunacaq dəmir yolu və avtomobil yolu infrastrukturunu demək olar ki, tamamlayıb. Siyasi maneələr prosesi yalnız bir qədər gecikdirə bilər, onun qarşısını almaq qeyri-mümkündür.

**_- Zəngəzur dəhlizinin reallaşması Azərbaycan, Ermənistan və bütövlükdə region üçün hansı siyasi və iqtisadi üstünlüklər vəd edir?_**

- Bu layihə bütövlükdə regionun mənzərəsini dəyişəcək bir iqtisadi və siyasi inteqrasiya modelidir. Buna üç istiqamətdə baxmaq olar. Azərbaycan üçün - Naxçıvanla birbaşa və maneəsiz quru əlaqəsi təmin olunur, ölkəmizin beynəlxalq logistik qovşaq statusu möhkəmlənir.



Ermənistan üçün - İrəvan rəhbərliyi bunu düzgün dəyərləndirsə, ölkə uzun illərdir davam edən iqtisadi blokadadan xilas ola bilər. Ermənistan həm Rusiya, həm də İranla dəmir yolu əlaqəsi qazanmaq imkanı əldə edir.

Region üçün - Cənubi Qafqazda sülh və sabitlik platforması yaranır, regional ticarət dövriyyəsi kəskin şəkildə artır. Deməli, hər dövlətin iqtisadi və siyasi marağı təmin olunur.

**_- Rusiya Zəngəzur dəhlizi məsələsində hansı maraqlardan çıxış edir? Moskvanın layihənin icrasına təsir etmək imkanları nə dərəcədədir?_**

- Rusiya 10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanatın (xüsusilə 9-cu bəndin) imzalanmasında tərəf kimi iştirak edib və həmin sənədə əsasən regional kommunikasiyaların, o cümlədən bu xəttin təhlükəsizliyinə Rusiya Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Qoşunları nəzarət etməli idi. Moskva bu layihə vasitəsilə Cənubi Qafqazdakı logistik üstünlüyünü qorumağa və Şimal-Cənub, Şərq-Qərb marşrutlarının kəsişməsində öz iştirakını təmin etməyə çalışırdı. Zəngəzur dəhlizi Rusiya üçün də yeni imkanlar təqdim edir.

Moskva, düşünürəm, yeni reallıqları nəzərə almaya bilməz. Hazırda Zəngəzur dəhlizi ilə əlaqədar proseslər 6 il əvvəlkindən fərqli geosiyasi koordinatlarda aparılır və bu artıq regional konfiqurasiyanın ayrılmaz elementidir. Ölkəmiz də digər dövlətlər kimi Moskvanın nəqliyyat-logistika ehtiyaclarına anlayışla yanaşır və Zəngəzur dəhlizi ilə bağlı əməkdaşlıq bütün tərəflərə yalnız fayda verə bilər. Azərbaycan Rusiya ilə münasibətlərdə hər zaman konstruktiv olub və Moskvanın regiondakı real çəkisini nəzərə alır, lakin son qərarlar həm də Ermənistanın öz öhdəliklərinə sadiqliyindən asılıdır.

> *Bu gün atılan bütün addımlar Cənubi Qafqazda qalıcı sülhün və tam nəqliyyat inteqrasiyasının təmin edilməsinə hesablanıb*

**_- İranın Zəngəzur dəhlizi ilə bağlı narahatlıqlarının əsas səbəbləri nədən ibarətdir? Tehran bu prosesə real şəkildə mane ola bilərmi?_**

- İranın narahatlığı əsasən regiondakı geosiyasi konfiqurasiyanın dəyişməsi və Ermənistanla olan qısa sərhədinin ("qırmızı xətt" kimi qəbul etdikləri xəttin) kəsilməsidir. Lakin Azərbaycan dövləti dəfələrlə bəyan edib ki, bu layihə heç bir ölkənin sərhədlərini dəyişmir və heç bir ölkəyə qarşı yönəlməyib. Əksinə, rəsmi Bakı gərginliyi azaltmaq üçün alternativ variant kimi İran ərazisindən keçən və Araz çayı üzərindən Naxçıvana uzanan ("Araz dəhlizi") marşrutu da işə salıb.

Bu addım sübut etdi ki, ölkəmiz region dövlətlərinin maraqlarını nəzərə alır və onları tarazlaşdırır. Əgər kimsə Zəngəzurdan keçən yolu süni şəkildə bloklamaq istəsə, Azərbaycan öz maraqlarını təmin etmək üçün alternativlərə sahibdir və hazırkı şəraitdə Tehranın bu prosesə tam mane olmaq imkanları məhduddur.

**_- Son illərdə bölgədə dəyişən geosiyasi vəziyyət Rusiya və İranın regional təsir imkanlarına necə təsir edib?_**

- 2020-ci il müharibəsindən və xüsusilə 2023-cü ilin antiterror tədbirlərindən sonra regionun əsas güc mərkəzi və gündəliyi müəyyən edən tərəfi Azərbaycan olub. Rusiya Ukrayna müharibəsi fonunda regiona diqqətini müəyyən dərəcədə diversifikasiya etmək məcburiyyətində qalıb, Ermənistanın indiki hakimiyyəti isə Qərbə meyillənməklə Rusiyanın regiondakı varlığını zəiflətməyə çalışır. İran isə regionda yaranan yeni türk birliyi coğrafiyasından və Qərbin bölgəyə möhkəmlənmək cəhdlərindən ehtiyat edir. Ölkə başçımızın da qeyd etdiyi kimi, artıq kənar qüvvələrin bu regionda öz diktələrini yürütmək dövrü geridə qalıb. Bu gün regionun taleyini region ölkələri həll edir.

**_- Ermənistanın dəhliz məsələsinə yanaşmasında hansı dəyişikliklər müşahidə olunur? Rəsmi İrəvanın mövqeyi layihənin gələcəyinə necə təsir göstərə bilər?_**

- Ermənistanın mövqeyi uzun müddət qeyri-stabil və ziddiyyətli olub. Onlar "dəhliz" sözünün suverenliklərinə təhlükə yaratdığını bəhanə edərək prosesi ləngidirdilər, hətta buna alternativ olaraq "Sülh kəsişməsi" kimi utopik layihələr irəli sürürdülər. Lakin Azərbaycanın qətiyyətli mövqeyi və İran marşrutunu aktivləşdirməsi İrəvanı reallıqla barışmağa məcbur edir. Azərbaycan Ermənistanın daxili qanunvericiliyinə və suverenliyinə hörmətlə yanaşdığını, lakin keçidin asanlaşdırılmış və maneəsiz, gömrük və rüsum asılılığı olmadan açılmasını əsas tələb kimi qarşıya qoyub.

Hazırda proseslər bu çərçivədə gedir və əsas tərəfdaşlar da bu yanaşmanı nəzərə alır. Ermənistan dərk etməlidir ki, bu layihədən imtina etmək bütöv bir regionun deyil, məhz Ermənistanın özünün gələcəyini bloklamaq deməkdir.

**_- Zəngəzur dəhlizinin açılması Türk dünyasının inteqrasiyası və Orta Dəhlizin inkişafı baxımından hansı strateji əhəmiyyət daşıyır?_**

- Bu, layihənin ən strateji və tarixi tərəfidir. Prezident İlham Əliyevin ifadə etdiyi kimi, Zəngəzur dəhlizi təkcə iqtisadi yox, həm də böyük coğrafi və tarixi əhəmiyyətə malikdir. Bu dəhliz vaxtilə Türk dünyasını parçalamaq üçün Ermənistana verilmiş Zəngəzur mahalından keçərək indi Türk dünyasını yenidən coğrafi cəhətdən birləşdirəcək. Şərqi Zəngəzuru Qərbi Zəngəzurla və oradan Türkiyə, eləcə də Mərkəzi Asiya ilə birləşdirən bu xətt qlobal "Orta Dəhliz"in ən qısa, təhlükəsiz və səmərəli hissəsinə çevriləcək. Çindən Avropaya qədər uzanan yüklərin daşınmasında Azərbaycanın əvəzedilməz rolu bir daha təsdiqlənəcək.

**_- Sizcə, yaxın perspektivdə Zəngəzur dəhlizinin reallaşması istiqamətində hansı konkret addımların atılması gözlənilir və proses hansı mərhələyə keçə bilər?_**

- Yaxın perspektivdə Azərbaycan tərəfi öz ərazisindəki tikinti-bərpa işlərini tamamilə yekunlaşdıracaq. Horadiz-Ağbənd dəmir və avtomobil yollarını nəzərdə tuturam. Növbəti mərhələ sülh müqaviləsi və ya sərhədlərin delimitasiyası prosesi çərçivəsində Ermənistanın öz üzərinə düşən 43 kilometrlik Zəngəzur sahəsində tikintiyə başlaması olmalıdır. Hər bir halda, Azərbaycan öz hədəfinə nail olacaq. Bu gün atılan bütün addımlar Cənubi Qafqazda qalıcı sülhün və tam nəqliyyat inteqrasiyasının təmin edilməsinə hesablanıb. Dünyanın buna ehtiyacı var.

***✍ Tahirə Qafarlı***

---

Gündəm



# Avropa məhkəməsindən suverenliyimizə qarşı hörmətsizlik

**_İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (AİHM) "V.T. və digərləri Azərbaycana qarşı" işi üzrə qəbul etdiyi son qərar Azərbaycanda geniş müzakirələrə səbəb olub. Qərarda Ermənistan vətəndaşlarının müraciəti əsasında Azərbaycanın Avropa İnsan Hüquqları Konvensiyasının bəzi müddəalarını pozduğu qənaətinə gəlinməsi, xüsusilə də işğal dövründə baş vermiş hadisələrə verilən hüquqi qiymət cəmiyyətdə və ekspert dairələrində ciddi suallar doğurub. Azərbaycan Xarici İşlər Nazirliyi bununla bağlı Avropa Şurasının Bakı ofisinin rəhbərinə etiraz notası təqdim edib._**

Məhkəmənin belə bir qərar qəbul etməsinə hansı amillər təsir göstərib? Qərarın arxasında yalnız hüquqi arqumentlər dayanır, yoxsa siyasi və lobbiçilik faktorları da rol oynayır? Ermənistan diasporunun və müxtəlif təsir qruplarının fəaliyyəti bu prosesə nə dərəcədə təsir edir?

**■ Qulamhüseyn Əlibəyli, politoloq:**

- Avropa Konvensiyasına əsasən dövlət yalnız öz yurisdiksiyası altında olan ərazilərdə və şəxslərlə bağlı hüquq pozuntularına görə məsuliyyət daşıya bilər. Azərbaycan isə Avropa Şurasına üzv olarkən Ermənistanın işğalı altında olan ərazilərdə Konvensiyanın müddəalarını tətbiq etmək imkanına malik olmadığını rəsmi şəkildə bəyan edib.

Avropa Məhkəməsinin özü də 2015-ci ildə "Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə qərarında Azərbaycanın işğal olunmuş ərazilərinin Ermənistanın faktiki nəzarəti altında olduğunu təsbit etmişdi. Həmin qərarda qondarma rejimin Ermənistanın hərbi, siyasi və maliyyə dəstəyi ilə fəaliyyət göstərdiyi açıq şəkildə qeyd olunub. Belə olan halda, həmin dövrdə Azərbaycanın faktiki nəzarətində olmayan ərazilərdə baş vermiş hadisələrə görə Azərbaycanın məsuliyyət daşıması hüquqi baxımdan əsaslandırılmış görünmür.

Qərarda irəli sürülən iddiaların sübut bazası da mübahisəlidir. Həm Avropa İnsan Hüquqları Konvensiyasına, həm də beynəlxalq humanitar hüququn əsasını təşkil edən Cenevrə Konvensiyalarına görə hərbi əməliyyatlar zamanı insan hüquqlarının pozulması ilə bağlı iddialar tutarlı və təkzibedilməz sübutlara əsaslanmalıdır. Qərarda əsasən şahid ifadələrinə və işğal dövründə fəaliyyət göstərmiş separatçı rejimin təqdim etdiyi materiallara istinad olunur. Lakin bu materialların nə dərəcədə etibarlı və obyektiv olduğu ayrıca hüquqi müzakirə mövzusudur. Həmin faktların Azərbaycan dövləti tərəfindən törədildiyini təsdiqləyən konkret və mübahisəsiz sübutlar ortaya qoyulmayıb.

Qərarda beynəlxalq səviyyədə tanınmayan separatçı qurumun faktiki hüquqi subyekt kimi təqdim edilməsi Azərbaycanın dövlət suverenliyinə hörmətsizlikdir. Belə istinadlar həm beynəlxalq hüququn prinsipləri, həm də məhkəmənin əvvəlki qərarları ilə ziddiyyət təşkil edir. Azərbaycan bu qərardan nəzərdə tutulmuş bütün hüquqi prosedurlar çərçivəsində şikayət verməli və AİHM-in Böyük Palatasına müraciət etməlidir.

> *Azərbaycan bu qərardan nəzərdə tutulmuş bütün hüquqi prosedurlar çərçivəsində şikayət verməli və AİHM-in Böyük Palatasına müraciət etməlidir*

> *Nəzərə almaq lazımdır ki, ermənilər tarixən həm Rusiyanın, həm də bəzi hallarda Qərb dövlətlərinin Cənubi Qafqazda təsir vasitələrindən biri kimi çıxış ediblər*

> *Son illərdə Avropa təsisatlarının Azərbaycana münasibətdə nümayiş etdirdiyi yanaşmalar etimad böhranı yaradıb*

**■ Azər Həsrət, siyasi şərhçi:**

- AİHM-in qərarı hüquqi baxımdan ciddi mübahisələr doğurur. Məhkəmə ilk növbədə Ermənistan vətəndaşının hansı əsasla Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisində, üstəlik qanunsuz silahlı birləşmələrin tərkibində fəaliyyət göstərdiyini araşdırmalı idi. Həmin şəxsin Azərbaycan ərazisində olmasının səbəblərinə hüquqi qiymət verilmədən məsələnin mahiyyətinə keçilməsi qərarın obyektivliyi ilə bağlı suallar yaradır. Qərarda beynəlxalq hüquq tərəfindən tanınmayan separatçı quruma istinadların yer almasını hüquqi baxımdan əsaslandırılmamış yanaşmadır. Azərbaycan məsələyə öz suverenliyi və ərazi bütövlüyünün qorunması prizmasından yanaşır. AİHM-in son qərarı Azərbaycanla Avropa institutları arasındakı münasibətlərə də mənfi təsir göstərir. Onsuz da son illərdə Avropa təsisatlarının Azərbaycana münasibətdə nümayiş etdirdiyi yanaşmalar etimad böhranı yaradıb və son qərar bu narahatlıqları daha da artırır. Azərbaycan beynəlxalq təşkilatlardan qərəzsiz və ədalətli münasibət gözləyir. Qərarlar siyasi maraqlara deyil, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanmalıdır. Əks halda bu cür yanaşmalar tərəflər arasında etimadı zəiflədir və münasibətlərə mənfi təsir göstərir. AİHM-in son qərarı fonunda Azərbaycanın Avropa Şurası ilə münasibətlərinin gələcək perspektivləri də ciddi şəkildə müzakirə olunmalıdır.

**■ Azər Hüseynov, siyasi ekspert:**

- Avropada və ümumilikdə Qərbdə ermənilərə qarşı müəyyən simpatiya mövcud olduğu və bu amilin zaman-zaman həmin dövlətlərin siyasətinə də təsir göstərdiyi xüsusilə qeyd olunmalıdır. Məhz buna görə də Azərbaycan öz xarici siyasətini formalaşdırarkən bu reallığı nəzərə almalıdır. Qərb ölkələri iqtisadi və siyasi sahələrdə Azərbaycanın mühüm tərəfdaşları olsa da, Ermənistan-Azərbaycan münaqişəsi məsələsində onlar uzun müddət işğal faktına və ermənilərin azərbaycanlılara qarşı törətdiyi cinayətlərə lazımi səviyyədə siyasi-hüquqi qiymət verməkdən çəkiniblər. Tam əksinə, bu qərəzli qərar kimi bir sıra hallarda erməni eşqi ilə hərəkət ediblər. Eyni zamanda nəzərə almaq lazımdır ki, ermənilər tarixən həm Rusiyanın, həm də bəzi hallarda Qərb dövlətlərinin Cənubi Qafqazda təsir vasitələrindən biri kimi çıxış ediblər. Buna görə də Azərbaycanın işğaldan azad edilmiş ərazilərində ermənilərin törətdiyi vandalizm aktlarının, hərbi cinayətlərin və mədəni irsə qarşı həyata keçirilmiş dağıntıların beynəlxalq hüquqi müstəvidə tanınması və müvafiq qiymətini alması istiqamətində fəaliyyət davam etdirilməlidir.

***✍ Tahirə***

# Köhnə maşınlar "səhnədən silinir"

## Layihə

***Azərbaycanda köhnə nəqliyyat vasitələrinin utilizasiyası son illərdə təkcə texniki və inzibati tədbir kimi deyil, həm də ətraf mühitin qorunmasına yönəlmiş mühüm ekoloji siyasət aləti kimi formalaşır. Baş Dövlət Yol Polisi İdarəsinin Avtotexniki Müfəttişlik şöbəsinin nümayəndəsi Aslan Hacıyevin açıqladığı son rəqəmlər bu prosesin miqyasını və dinamikasını aydın şəkildə göstərir. Rəsmi məlumata görə, indiyədək təxminən 30 minə yaxın nəqliyyat vasitəsi utilizasiyaya təhvil verilərək dövriyyədən çıxarılıb. Statistika son illərdə prosesin xeyli sürətləndiyini göstərir. Belə ki, 2024-cü ildə 1 966 avtomobil utilizasiya edilmişdisə, 2025-ci ildə bu rəqəm kəskin artaraq 19840-a yüksəlib.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Ekologiya və ətraf mühitin mühafizəsi

*"Müasir urban mühitlərdə havanın çirklənməsi problemi çoxfaktorlu xarakter daşıyır, lakin nəqliyyat sektoru bu amillər arasında ən yüksək paya malik olanlardan biridir"*

2026-cı ilin hazırkı dövrünə qədər isə artıq 13 330 nəqliyyat vasitəsi dövriyyədən çıxarılıb. Bu dinamika həm inzibati nəzarətin güclənməsini, həm də köhnə avtomobil parkının mərhələli şəkildə yenilənməsini nümayiş etdirir. Ekoloji baxımdan bu prosesin əsas mahiyyəti köhnə, texniki baxımdan köhnəlmiş və emissiya standartlarına cavab verməyən nəqliyyat vasitələrinin şəhər mühitindən çıxarılmasıdır. Uzun illər istismar edilən avtomobillər adətən yanmanı tam effektiv həyata keçirə bilmir və nəticədə atmosferə daha çox zərərli qazlar buraxır. Bu qazlar sırasında karbon monoksid (CO), azot oksidləri , uçucu üzvi birləşmələr və bərk hissəciklər xüsusi yer tutur. Bu maddələr şəhər mühitində toplanaraq hava keyfiyyətinin pisləşməsinə, smoq qatının yaranmasına və insanların sağlamlığına birbaşa təsir edən problemlərə səbəb olur. Xüsusilə iri şəhərlərdə, nəqliyyat sıxlığının yüksək olduğu ərazilərdə köhnə avtomobillərin payı artdıqca tənəffüs yolları xəstəlikləri, allergik reaksiyalar və ürək-damar problemləri kimi risklər də yüksəlir. Utilizasiya proqramı məhz bu nöqtədə ekoloji balansın bərpasına xidmət edən mexanizm kimi çıxış edir. Köhnə avtomobillərin dövriyyədən çıxarılması ilə birlikdə şəhər havasına düşən ümumi emissiya yükü azalır, nəqliyyat sektorunun karbon izi tədricən aşağı düşür və şəhər ekosistemində daha sabit bir tarazlıq yaranır.

Eyni zamanda, bu proses avtomobil parkının yenilənməsinə də təkan verir. Yeni istehsal olunan nəqliyyat vasitələri beynəlxalq emissiya standartlarına, xüsusilə Avro-5 və Avro-6 normalarına daha uyğun olur. Bu isə o deməkdir ki, hər yeni avtomobil orta hesabla daha az yanacaq sərf edir və daha az zərərli qaz emissiyası yaradır. Nəticədə həm iqtisadi, həm də ekoloji səmərəlilik artır.

Ekoloqların ümumi yanaşmasına görə, utilizasiya yalnız köhnə avtomobillərin sıradan çıxarılması deyil, eyni zamanda şəhər nəqliyyat sisteminin "yaşıllaşdırılması" prosesinin başlanğıc mərhələsidir. Bu mərhələnin davamı olaraq ictimai nəqliyyatın genişləndirilməsi, elektrik və hibrid avtomobillərin stimullaşdırılması, eləcə də yanacaq keyfiyyətinin yüksəldilməsi kimi tədbirlər paralel şəkildə həyata keçirilməlidir.

Azərbaycanda da bu istiqamətdə atılan addımlar tədricən daha kompleks xarakter almaqdadır. Utilizasiya proqramı təkbaşına deyil, ümumi ekoloji strategiyanın bir hissəsi kimi formalaşdıqca, nəticələr daha görünən və dayanıqlı olur. Bu, həm şəhər ekosisteminin sağlamlaşdırılması, həm də gələcək nəsillər üçün daha təmiz urban mühitin yaradılması baxımından strateji əhəmiyyət daşıyır.

Nəticə etibarilə, 30 minə yaxın avtomobilin dövriyyədən çıxarılması sadəcə statistik göstərici deyil. Bu rəqəm şəhər havasının keyfiyyətinə, insanların sağlamlığına və ümumilikdə ekoloji tarazlığa yönəlmiş sistemli bir dəyişimin göstəricisidir. Proses davam etdikcə, onun təsiri daha geniş miqyasda hiss olunacaq və avtomobil sektorunda "yaşıl transformasiya"nın əsas sütunlarından birinə çevriləcək.

■ **Məsələ ilə bağlı ekoloq Iradə Həsənova da Azərbaycanda həyata keçirilən nəqliyyat vasitələrinin utilizasiya proqramını ölkənin ekoloji siyasətində sistemli transformasiya mərhələsi kimi dəyərləndirir və bildirir ki, bu yanaşma təkcə köhnə avtomobillərin dövriyyədən çıxarılması ilə məhdudlaşmır, eyni zamanda şəhər mühitinin struktur ekoloji balansının yenidən qurulmasına xidmət edir.**

Onun sözlərinə görə, müasir urban mühitlərdə havanın çirklənməsi problemi çoxfaktorlu xarakter daşıyır, lakin nəqliyyat sektoru bu amillər arasında ən yüksək paya malik olanlardan biridir. Xüsusilə uzun illər istismar edilmiş avtomobillər emissiya baxımından daha kritik rol oynayır. "Köhnə nəqliyyat vasitələrində mühərrik aşınması, yanacaq sisteminin qeyri-effektivliyi və texniki nasazlıqlar nəticəsində yanma prosesi tam baş vermir. Bu isə karbon monoksid , azot oksidləri, uçucu üzvi birləşmələr və bərk hissəciklərin normadan artıq miqdarda atmosferə buraxılmasına səbəb olur," - deyə ekoloq qeyd edir. İ.Həsənova vurğulayır ki, bu çirkləndiricilər təkcə hava keyfiyyətini aşağı salmır, həm də insan sağlamlığına uzunmüddətli təsir göstərən risk faktorlarıdır. Onun fikrincə, Bakı kimi yüksək sıxlıqlı şəhərlərdə nəqliyyat emissiyalarının təsiri daha qabarıq şəkildə hiss olunur və bu, şəhər ekosistemində "xroniki çirklənmə yükü" yaradır. Ekoloq əlavə edir ki, utilizasiya proqramı bu problemin yumşaldılması üçün mühüm alət kimi çıxış edir. Köhnə və yüksək emissiyalı avtomobillərin mərhələli şəkildə dövriyyədən çıxarılması nəticəsində şəhər nəqliyyatının orta emissiya profili dəyişir. Bu dəyişiklik tədricən olsa da, ümumi atmosfer yükünün azalmasına səbəb olur. "Burada əsas məqam ondan ibarətdir ki, biz yalnız avtomobillərin sayını azaltmırıq, həm də nəqliyyat sektorunun struktur keyfiyyətini dəyişirik," - deyə o bildirir.

Onun sözlərinə görə, bu prosesin ekoloji effektivliyi avtomobil parkının yenilənmə sürətindən və paralel həyata keçirilən siyasətlərdən asılıdır. Əgər utilizasiya proqramı yeni, daha az emissiyalı nəqliyyat vasitələrinin bazara daxil olması ilə müşayiət olunursa, o zaman nəticə daha dayanıqlı olur. Əks halda, sadəcə say dəyişimi ekoloji baxımdan istənilən effekti verməyə bilər.

İ.Həsənova hesab edir ki, utilizasiya siyasətinin mühüm tərəflərindən biri də enerji səmərəliliyinin artırılmasıdır. Yeni nəsil avtomobillər, xüsusilə Avro-5 və Avro-6 standartlarına uyğun modellər həm yanacaq sərfiyyatını azaldır, həm də eyni məsafə üçün daha az karbon emissiyası yaradır. Bu isə ümumi karbon izinin azalmasına və iqlim dəyişmələri ilə mübarizəyə töhfə verir.

Ekoloq qeyd edir ki, bu proqramın təsiri yalnız hava keyfiyyəti ilə məhdudlaşmır. Köhnə avtomobillərin azaldılması şəhər mühitində səs-küy çirklənməsinin də azalmasına səbəb olur. Aşınmış mühərriklər və texniki nasazlıqlar adətən daha yüksək səs səviyyəsi yaradır və bu da urban ekosistemdə əlavə stress faktoru kimi çıxış edir.

O həmçinin bildirir ki, utilizasiya prosesinin ətraf mühit üçün tam faydalı olması üçün ikinci mühüm mərhələ tullantıların düzgün idarə olunmasıdır. "Köhnə avtomobillər sadəcə metal yığını deyil, onların tərkibində yağlar, akkumulyator turşuları, plastik və rezin komponentlər kimi ekoloji baxımdan təhlükəli materiallar mövcuddur. Bu materialların düzgün emal olunmaması yeni çirklənmə mənbəyi yarada bilər," - deyə ekoloq qeyd edir. Onun fikrincə, müasir utilizasiya sistemləri "dairəvi iqtisadiyyat" prinsiplərinə əsaslanmalıdır. Yəni avtomobilin hər bir komponenti ya təkrar emala, ya da təhlükəsiz utilizasiyaya yönləndirilməlidir. Bu yanaşma həm resursların qənaətinə, həm də ekoloji yükün azaldılmasına xidmət edir.

İ.Həsənova beynəlxalq təcrübəyə də toxunaraq qeyd edir ki, inkişaf etmiş ölkələrdə utilizasiya proqramları iqlim siyasətinin ayrılmaz hissəsi kimi tətbiq olunur. Avropa İttifaqı ölkələrində köhnə avtomobillərin çıxarılması karbon emissiyalarının azaldılması üzrə milli hədəflərin birbaşa tərkib hissəsidir və ciddi normativ mexanizmlərlə tənzimlənir. Bu ölkələrdə eyni zamanda elektrik nəqliyyatına keçid də paralel şəkildə stimullaşdırılır. Ekoloq hesab edir ki, Azərbaycanda da bu istiqamətdə atılan addımlar perspektiv baxımından mühüm əhəmiyyət daşıyır.

Xüsusilə avtomobil parkının yenilənməsi ilə yanaşı, ictimai nəqliyyatın optimallaşdırılması, metro və elektrik avtobus şəbəkələrinin genişləndirilməsi, həmçinin velosiped infrastrukturunun inkişafı ekoloji təsiri daha da gücləndirə bilər. Onun sözlərinə görə, hazırda təxminən 30 minə yaxın avtomobilin dövriyyədən çıxarılması sadəcə başlanğıc mərhələsidir və bu rəqəm zamanla daha da artacaq. "Əgər bu proses davamlı və sistemli şəkildə aparılarsa, biz şəhər mühitində hiss olunan real dəyişikliklərə, daha təmiz hava, daha az emissiya və daha dayanıqlı ekosistemə şahid ola bilərik", - deyə ekoloq vurğulayır.

**✍ Sevinc**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# AZAL-a məxsus ilk Airbus A321neo təyyarəsi təhvil verildi

***Hamburqda AerCap şirkəti ilə lizinq müqaviləsi çərçivəsində "Azərbaycan Hava Yolları" QSC-yə (AZAL) təhvil verilən ilk Airbus A321neo təyyarəsinin təqdimetmə mərasimi keçirilib. Mərasimdə Airbus şirkətinin A320 ailəsi proqramının icraçı vitse-prezidenti Kristof Zammer, Airbus-un Şərqi Avropa və Mərkəzi Asiya üzrə satışlar üzrə vitse-prezidenti Şarbel Yuzkatli, AerCap şirkətinin Şərqi Avropa və Mərkəzi Asiya regionu üzrə baş vitse-prezidenti və rəhbəri Con Qovan, Airbus şirkətinin CFM proqramları üzrə baş meneceri Bruno Kastola və AZAL-ın baş kommersiya direktoru Cəmil Manizadə çıxış ediblər.***




Tədbirdə çıxış edən Airbus-un A320 ailəsi proqramının icraçı vitse-prezidenti Kristof Zammer bildirib ki, A321neo ilə AZAL-ın donanması sənayedə ən yaxşı təyyarələrdən biri hesab olunan bir hava gəmisi ilə genişlənir. "İstehsal həcmləri artdıqca biz bu gün gündə iki-üç təyyarə təhvil veririk, buna görə də çox sayda təntənəli mərasim keçirilmir. Lakin həqiqətən vacib hadisələr üçün istisna edirik və bugünkü tədbir də onlardan biridir - sizə ilk A321neo təyyarəsinin təhvil verilməsi," - deyə o bildirib.

Zammer qeyd edib ki, bu təyyarə yanacaq səmərəliliyi, səs səviyyəsinin aşağı olması və sərnişin komfortu baxımından sənayenin ən yaxşı nümunələrindən biridir.

Onun sözlərinə görə, yeni hava gəmisi AZAL-ın marşrut şəbəkəsinin genişləndirməsinə, sərnişinlər üçün komfortu artırmasına və gəlirliliyin yüksəlməsinə imkan verəcək. Airbus-un Şərqi Avropa və Mərkəzi Asiya üzrə satış rəhbəri Şarbel Yuzkatli isə bildirib ki, AZAL-a ilk Airbus A321neo-nun təhvil verilməsi həm aviaşirkət, həm də region aviasiya sənayesi üçün mühüm mərhələdir. O qeyd edib ki, AZAL uzun illər ərzində xidmət keyfiyyəti və əməliyyat fəaliyyəti sahəsində yüksək nəticələr əldə edib və bu inkişaf davamlıdır.

Yuzkatli həmçinin vurğulayıb ki, yeni təyyarə şirkətin beynəlxalq bazarda mövqeyini daha da gücləndirəcək. AerCap-in EMEA regionu üzrə rəhbəri Con Qovan bildirib ki, şirkət AZAL-ın marşrut şəbəkəsinin genişləndirilməsinə dəstək verməyə hazırdır. O əlavə edib ki, bu təhvil AerCap tərəfindən AZAL-a verilən üç A321neo təyyarəsindən birincisidir və bu, donanmanın inkişafında mühüm addımdır.

Qovan qeyd edib ki, proqram çərçivəsində ümumilikdə üç A321neo və üç A320neo təyyarəsinin təhvil verilməsi planlaşdırılır və qalan təyyarələr yaxın aylarda təqdim olunacaq. CFM şirkətinin Airbus proqramları üzrə baş meneceri Bruno Kastola isə bildirib ki, Leap-1A mühərrikləri əvvəlki nəsil mühərriklərlə müqayisədə təxminən 15 faiz daha az yanacaq sərf edir.

O vurğulayıb ki, AZAL-ın yenidən Leap-1A mühərriklərini seçməsi şirkətin texnologiyaya və xidmətə olan etimadını göstərir. AZAL-ın baş kommersiya direktoru Cəmil Manizadə isə qeyd edib ki, A321neo şirkətin modernizasiya strategiyasında yeni mərhələnin başlanğıcıdır. O bildirib ki, bu təyyarə yalnız yeni hava gəmisi deyil, həm də AZAL-ın inkişafında yeni səhifədir və yaxın illərdə donanmaya daha çox A321neo təyyarəsinin qoşulacağı gözlənilir. Tədbir çərçivəsində iştirakçılara "A321neo: təyyarənin yaradılma yolu" adlı videoçarx nümayiş etdirilib. Daha sonra Airbus A321neo-nun AZAL-a təhvil verilməsinin simvolizə edən xatirə hədiyyələrinin təqdimetmə mərasimi keçirilib.

## XƏBƏRİNİZ OLSUN...



■ İnformasiya infrastrukturunun informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyinin qorunması mexanizmi müəyyənləşir. Bu, Milli Məclisin İnsan hüquqları komitəsinin iclasında müzakirəyə çıxarılan "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanuna təklif edilən yeni fəsildə əksini tapıb.

■ ABŞ Quru Qoşunları müdafiə sənayesindən bir il ərzində daha ucuz raket-interseptorların hazırlanmasını tələb edib. Bu barədə Bloomberg məlumat yayıb. Məlumata görə, layihədə iri müdafiə şirkətləri ilə yanaşı, 100-ə yaxın startap da iştirak edəcək.

■ Qırğızıstan Prezidenti Sadır Japarov nəvələrinə smartfonlardan istifadəni qadağan etdiyini açıqlayıb və valideynlərə də eyni şeyi tövsiyə edib. Bu barədə "Sputnik Qırğızıstan" məlumat yayıb.



■ ABŞ administrasiyası İrana qarşı hərbi əməliyyatları dayandırmalıdır. Bununla bağlı ABŞ Senatı qətnamə qəbul edib. 50 senator bu qətnamənin lehinə, 48 senator isə əleyhinə səs verib. Hakim Respublikaçılar Partiyasından dörd qanunverici qətnamənin lehinə səs verib.

■ "SpaceX" şirkətinin təsisçisi İlon Maskın sərvəti 1 trilyon ABŞ dollarından aşağı düşərək 957 milyard dollara enib. İyunun 12-də Mask təsis etdiyi SpaceX şirkətinin səhmlərinin ticarətə çıxarılmasından sonra sərvəti 1 trilyon ABŞ dollarını ötən dünyada ilk şəxs olmuşdu.

■ Qazaxıstanın paytaxtı Astana şəhərində təşkil olunan "Altay" taekvondo turnirində Azərbaycanın gənclərdən ibarət milli komandası medal sayını artırıb. Yığmamız yarışın növbəti günündə 1 gümüş və 2 bürünc medal əldə edib. Taekvondoçularımız turnirin əvvəlki günündə də 1 gümüş və 2 bürünc medal qazanmışdılar.



■ Birjalarda qızılın qiyməti itkilərini artıraraq son iki həftənin ən aşağı səviyyəsinə düşüb. Qızılın qiyməti 1 faiz dəyər itirib və hazırda Nyu-Yorkun COMEX əmtəə birjasında bir troya unsiyası 4000 dollar civarındadır. ABŞ/İsrail-İran müharibəsi dövründə qızıl dəyərinin təxminən 23 faizini itirib.

■ BMT-nin qlobal təhsil fondunun çərşənbə axşamı yayımlanan yeni hesabatına görə, münaqişələr, köçkünlük, iqlim şokları dünyada təxminən 258 milyon məktəbyaşlı uşaq və yeniyetmənin təhsilini pozur və milyonlarla insanın təkcə illərlə təhsil almasını deyil, həm də gələcək imkanlarını tamamilə itirmək riski ilə üz-üzə qalacağı qorxusunu artırır.

■ Avstraliyanın Qərbi Avstraliya ştatında yüngül təyyarənin qəzaya uğraması nəticəsində pilot həlak olub. Hadisə Pert şəhərindən təxminən 90 kilometr şimal-şərqdə yerləşən Malabayn yaşayış məntəqəsi yaxınlığında baş verib. Təyyarədə yalnız pilot olub.

## Aktual

*Rusiya-Ukrayna müharibəsində yeni mərhələ başlayıb. Münaqişənin davam etdiyi dörd il ərzində istər ön, istərsə də arxa cəbhədə hər iki dövlətdə ciddi dəyişikliklər müşahidə olunur. Rusiya şəxsi heyət və hərbi texnika sayındakı üstünlüyündən istifadə edərək çətinliklə də olsa Ukrayna ərazilərinin işğalını davam etdirməyə çalışır. Ukrayna isə özünün texnoloji üstünlüklərindən yararlanaraq, Rusiyanın arxa cəbhəsində ciddi itkilərə yol açır.*



# Demilitarizasiyadan hərbi yüksəlişə

**■ Dünyada indi ən çox müzakirə olunan mövzu Ukraynanın, yoxsa Rusiyanın üstünlüyə malik olmasıdır. Piter Dickinson "Atlantic Council" üçün hazırladığı məqalədə bildirir ki, Rusiya Prezidenti Vladimir Putin genişmiqyaslı işğalın əvvəlində bəyan etmişdi ki, müharibənin əsas məqsədlərindən biri Ukraynanın demilitarizasiyasıdır.**

Lakin dörd il sonra nəticə tam əksinə oldu: Ukrayna ordusunu zəiflətmək əvəzinə, Rusiya müasir texnologiyalara və əhəmiyyətli döyüş təcrübəsinə malik güclü hərbi qüvvənin formalaşmasına şərait yaratdı. Onun sözlərinə görə, uzun illər ərzində Rusiyanın qələbəsi qaçılmaz görünürdü - yeganə sual sülhə nail olmaq üçün Ukraynanın nə qədər ərazi və suverenlikdən imtina etməli olacağı idi.

2026-cı ilin əvvəlindən etibarən dünyada bu müharibəyə baxış dəyişib. İndi bir çoxları vəziyyətin Ukraynanın xeyrinə dönüş nöqtəsinə çatdığını deyir, bəziləri isə hətta gələcəkdə Ukraynanın qələbəsini proqnozlaşdırır. Müəllif qeyd edir ki, bu dəyişiklik hər hansı bir tək hadisənin nəticəsi deyil, Ukraynanın tədricən elə bir hərbi gücə çevrilməsinin nəticəsidir ki, o, təkcə Rusiya ordusunu cilovlamağa deyil, həm də cəbhədən çox uzaqda yerləşən hədəflərə zərbələr endirməyə qadirdir. Dikkinson vurğulayır ki, 12 il əvvəl Putin Ukraynaya hücum etməyə cəsarət etdi, çünki onun bu ölkənin müdafiəsiz olduğu barədə təsəvvürü formalaşmışdı. Şərhçinin ifadəsi ilə desək, Rusiya lideri "çox da yanılmamışdı", çünki həmin dövrdə Ukrayna ordusunda cəmi bir neçə min döyüş qabiliyyətli hərbçi var idi. "Məhz 2014-cü ildə Ukraynanı xilas edən amil geniş könüllü hərəkatı oldu. İnsanlar Rusiya müdaxiləsinə qarşı mübarizə aparmaq üçün könüllü batalyonlar yaradırdılar. Bu spontan xalq hərəkatı ölkəni tam azad edə bilməsə də, Rusiyanın irəliləyişini dayandırdı və Kiyevdəki hakimiyyətə ordunu bərpa etmək üçün qiymətli vaxt qazandırdı", - məqalədə bildirilir.

> *Hazırda Ukrayna hesablaşılması vacib olan hərbi gücə çevrilib və nəhayət dünyanın diqqətini cəlb etməyə başlayıb*

Qeyd olunur ki, sonrakı illər genişmiqyaslı hərbi islahatlar dövrü oldu. Bu islahatlar Ukrayna ordusunun sayını bir neçə yüz min hərbçiyə çatdırdı və eyni zamanda onu NATO standartlarına yaxınlaşdırdı. "2022-ci ildən başlayaraq Ukrayna Silahlı Qüvvələri daha bir transformasiya mərhələsindən keçərək dünyanın ən güclü və texnoloji cəhətdən inkişaf etmiş ordularından birinə çevrildi. Say və texniki təchizat baxımından özündən qat-qat üstün rəqibə qarşı dövlətin sağ qalması uğrunda mübarizə aparan Ukrayna sürətlə yeni taktiki yanaşmalar hazırladı, istedadlı gənc komandirlərə daha çox səlahiyyət verdi və texnoloji yenilikləri heyrətamiz sürətlə tətbiq etdi", - Dikkinson xatırladır. Dikkinsonun sözlərinə görə, hazırda Ukrayna "hesablaşılması vacib olan" hərbi gücə çevrilib və "nəhayət dünyanın diqqətini cəlb etməyə başlayıb". Ukraynanın əldə etdiyi siyasi uğurlar və Rusiya Federasiyasının ərazisinin dərinliklərinə endirdiyi uğurlu zərbələr müharibənin gedişatının Kiyevin xeyrinə dəyişə biləcəyi ilə bağlı ümidləri yenidən canlandırıb. CNBC isə yazır ki, analitiklər xəbərdarlıq edirlər: münaqişənin Rusiyaya başa gələn qiymətini artırmaq cəhdləri daha böyük eskalasiyaya səbəb ola bilər.

"Münaqişənin son mərhələsi yaxınlaşır və buna görə də hazırda eskalasiya riski mövcuddur", - TS Lombard şirkətinin icraçı direktoru Kristofer Qranvill bildirib. Ekspertlər hesab edirlər ki, Ukraynanın tükənmiş hava hücumundan müdafiə sistemi onun cəbhədəki uğurları qarşısında ciddi maneədir və Rusiyanın daha da eskalasiya etməsi ehtimalı yüksək olaraq qalır.

Eyni zamanda, "Chatham House"un Avropa, Rusiya və Avrasiya proqramlarının direktoru Qrequar Rus Ukrayna dronlarının Moskva neft emalı zavoduna hücumunu "son bir ilin ən maraqlı hadisəsi" adlandırıb.

Onun sözlərinə görə, bu hadisə Ukraynanın artan hərbi özünəinamını nümayiş etdirməklə yanaşı, Kiyevin Rusiyaya "ən ağrılı nöqtələrdən" zərbə vurmağın və onun enerji gəlirlərini azaltmağın vacibliyini anladığını göstərib. "Rusiya üçün çətin dövr başlayıb. Kiçik və orta müəssisələrin iflaslarının sayı daim artır", - Rus qeyd edib. Rusiya Mərkəzi Bankının məlumatına görə, iyunun ortalarına olan vəziyyətə əsasən ölkədə illik inflyasiya 5,6% təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə aşağıdır. Lakin İsveç kəşfiyyatı bu yaxınlarda Rusiyanın iqtisadi məlumatlarla manipulyasiya etdiyini və real inflyasiya səviyyəsinin xeyli yüksək - bəlkə də 15%-ə qədər ola biləcəyini bildirib. Rusun sözlərinə görə, belə göstərici artıq ciddi siqnaldır. Londondakı RUSI Müdafiə Araşdırmaları Mərkəzinin Rusiya və Avrasiya təhlükəsizliyi üzrə böyük elmi əməkdaşı Natiya Seskuriya bildirib ki, Ukraynanın Rusiyaya qarşı orta və uzaq mənzilli pilotsuz uçuş aparatlarından istifadə kampaniyası "həqiqətən əhəmiyyətlidir".

"Ukrayna əslində ruslara göstərir ki, bu müharibənin qiyməti getdikcə artır. Təkcə Putin üçün deyil, adi vətəndaşlar üçün də. Uzun müddət Putin əhaliyə Krımın təhlükəsiz olduğunu və müharibənin onların evlərinə yaxınlaşmayacağını təlqin edirdi. İndi isə görürük ki, onlar çox uzun müddətdən bəri ən ciddi yanacaq böhranı ilə üzləşirlər", - o deyib.

Onun sözlərinə görə, Ukraynanın Krımı tamamilə təcrid edə biləcəyini demək üçün hələ tezdir, lakin yarımadaya qarşı davam edən hücumlar çox güman ki, Rusiyanın yay hücum əməliyyatlarını xeyli çətinləşdirəcək.

"Son mərhələ yaxınlaşır və buna görə də hazırda eskalasiya riski mövcuddur. Rusiyanın ərazi iddiaları hazırda Donetsk vilayətinin şimal-qərb hissəsi ilə məhdudlaşır ki, bu da Donbasın sonuncu hissəsidir", - TS Lombard şirkətinin icraçı direktoru Kristofer Qranvill CNBC-yə müsahibəsində bildirib. Onun fikrincə, Rusiyanın belə yaşayış məntəqələrindən birini, ən yaxşı halda isə ikisini ələ keçirməsi üçün "altı ay lazım ola bilər" və Donbasdakı Konstantinovka və Liman şəhərləri "demək olar ki, süqut etmək üzrədir". Qranvill əlavə edib ki, regionun iki böyük şəhəri - Kramatorsk və Slavyansk hələ də Rusiya qüvvələri tərəfindən ələ keçirilməyib.

"Deməli, bu nöqtəyə çatmaq üçün təxminən 12 ay lazım ola bilər və başqa sözlə, hadisələrin mümkün son nöqtəsini görmək mümkündür", - o deyib. Lakin ekspert qeyd edib ki, eyni 12 aylıq müddət alternativ ssenariyə də aid edilə bilər: Ukraynanın Rusiya logistikasına və cəmiyyətinə təzyiqi davam etdirəcəyi və bunun nəticəsində Rusiyanın hazırkı ərazi məqsədlərinə uyğun gəlməyən cəbhə xətti boyunca atəşkəsə razı olacağı ehtimalı. ABŞ Prezidenti Donald Tramp da Rusiyanın ərazisindəki hədəflərə zərbələr endirməyə yönəlmiş Ukraynanın son kampaniyasından çox təsirlənib və ruhlanıb. Bu barədə Financial Times qapalı keçirilən "Böyük Yeddilik" ("G7") sammitində aparılmış danışıqlardan məlumatlı olan iki mənbəyə istinadən xəbər verir.

> *Ukraynanın Krımı tamamilə təcrid edə biləcəyini demək üçün hələ tezdir*

Yüksəkvəzifəli ukraynalı rəsmilər jurnalistlərə bildiriblər ki, Ukraynanın uğurlu zərbələri Trampı Rusiyanın enerji sektoruna qarşı sanksiyaların sərtləşdirilməsinə qərar verməyə sövq edib. Onların sözlərinə görə, ABŞ prezidentinin Ukraynaya daha fəal dəstək göstərməyə meylləndiyini göstərən əlamətlər var. Ukraynalı rəsmilər jurnalistlərlə söhbətdə qeyd ediblər ki, Tramp müharibənin dayandırılması üçün Rusiyaya təzyiq göstərməyə hazır görünür. Onlar ABŞ prezidentinin verdiyi vədləri sonadək yerinə yetirəcəyinə şübhə ilə yanaşırlar.

Nəşrin həmsöhbətləri əlavə ediblər ki, "G7" sammiti çərçivəsində Volodimir Zelenski ilə görüşdən sonra Tramp Ukraynaya Patriot hava hücumundan müdafiə sistemi üçün raket-tutucuların tədarükünə, həmçinin Ukraynaya ABŞ istehsalı raketlərin istehsalı üçün lisenziya verilməsinə daha müsbət yanaşmağa başlayıb. Ukraynalı rəsmilərdən biri bildirib ki, hər şey Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rüstəm Umerov ilə ABŞ nümayəndələri arasında aparılacaq növbəti danışıqlardan asılı olacaq və həmin görüşlərdə detallar razılaşdırılacaq.

Ukraynalı rəsmi jurnalistlərə, həmçinin bildirib ki, "G7" sammitində keçirilən şam yeməyi zamanı Zelenski ilə Tramp uzun müddət söhbət ediblər. Onun sözlərinə görə, məhz həmin vaxt ABŞ prezidenti Ukraynanın son hərbi nailiyyətlərindən təsirləndiyini etiraf edib.

*✍ Ləman Əliyeva*

# İran Trampa güvənmir

*ABŞ ilə İran arasında məlum razılaşma imzalandı. Atəşkəs yaransa da, hələlik bu, tam sülh də deyil. Danışıqlar gedir, razılaşdırılmalı olan məqamlar var. Xüsusilə də İranın nüvə proqramı məsələsi danışılır. Bundan əlavə və ən başlıcası isə, ABŞ prezidenti məsələ ilə bağlı hər yerdə amiranə danışır, sanki mütləq qalibdir. Ancaq bu da bir həqiqətdir ki, İsrail əhalisinin böyük hissəsi də daxil olmaqla, dünya ictimaiyyəti əslində İranın qalib tərəf olduğuna inanır. Ümumiyyətlə, danışıqların gedişi, əldə olunan razılaşmalar İran üçün məqbuldurmu? İranın Azərbaycandakı keçmiş səfiri Əfşar Süleymani Hafta.az-a müsahibəsində bəzi məqamlara aydınlıq gətirməyə çalışdı:*



**Əfşar Süleymani,**
İranın Azərbaycandakı
keçmiş səfiri

## Müsahib

- İlkin memoranduma əsasən, Amerika dəniz blokadasını aradan qaldırıb, İran da gəmilərin sərbəst yük daşımalarına icazə verib. Əlbəttə, ancaq yük gəmiləri, yanacaq daşıyan tankerlərin hərəkətinə icazə verilir. Yəni silah-sursat daşıyan gəmilər istisnadır. Bu iki ay ərzində İran gəmilərdən heç bir rüsum almayacaq. Amma danışıqlar gedir, iki ayın sonunadək yekun qərar verilməlidir. Amerikaya bildirilir ki, siz qarışmayın, məsələni Körfəz ölkələri özləri həll etsinlər. Hörmüz boğazı İranla Oman arasında qalan su keçidi bölgəsidir və bura yeni status verilməlidir. Gəmilərin sərbəst hərəkətini, təhlükəsizliyini təmin etmək məsuliyyəti İranın üzərinə düşür və bu mənada rüsum alına bilər. Hər halda, İran bildirir ki, Hörmüz boğazında vəziyyət müharibədən əvvəlki kimi olmayacaq.

***- İsrail narahatdır ki, İranın nüvə proqramı tam aradan qaldırılmayıb, amma bildiyimizə görə, Tehran MAQATE ilə sıx əməkdaşlıq edəcəyini bəyan edib. Bir məsələ də var ki, İran tərəfi bütün səviyyələrdə nüvə proqramının müzakirə mövzusu olmayacağını açıqlamışdı. Bu məsələyə siz necə münasibət bildirərdiniz?***

- İranın nüvə proqramı məsələsi memorandumda nəzərdə tutulmayıb, bu, danışıqların mövzusudur. Nüvə proqramı, 300 milyard dollarlıq ziyan və sair kimi məsələlərlə bağlı bir neçə komitə təsis edilib və onlar müzakirə edirlər ki, bu iki ay ərzində hansı nəticəyə varacaqlar. MAQATE nümayəndələri ancaq tam razılıq əldə olunandan sonra İrana gələ biləcəklər. O da ki, əlbəttə Amerikanın istədiyi şəkildə yox, tam beynəlxalq hüquq və normalar əsasında. Saziş imzalanarkən bilinəcək ki, İran uranı neçə faiz zənginləşdirə bilər.

***- Bu arada, danışıqlarda güzəştlər, ancaq İrandan tələb olunur, bəs İran da tələb etdimi ki, məsələn, İsrailin nüvə proqramı beynəlxalq səviyyədə təftiş olunsun?***

- Atəşkəs razılaşması olsa da, vəziyyət gərgin olaraq qalır. Məsələn, elə dünən dedilər yenə hücum olub. Amerika sözünün üstündə möhkəm dayansa, İsraili də dayandıra bilər. Düzdür, İsrail hələ də Livanın cənubundan çıxmayıb, bütün hallarda hələlik nisbi sakitlikdir deyə bilərik. Əslində, İsrail ilk başdan çalışır ki, atəşkəs razılaşması pozulsun. İsrail heç memorandumun imzalanmasını da istəmirdi. Bunu bütün dünya bilir. Hətta Türkiyə tərəfi açıq bəyan etmişdi ki, İsrail razılaşmanın pozulmasına çalışır. Hesab edirəm ki, bu məsələlər kökündən həll olunanadək davam edəcək. İsrail Livana müdaxilə edir, Suriyada da istədiyini etməyə çalışır. İsrail-Fələstin məsələsi də olduğu kimi qalır. Yəni bütünlüklə Yaxın Şərq məsələləri dünya səviyyəsində konkret həll olunmasa, belə də qalacaq. BMT də heç nə edə bilmir, bizdə bir məsəl var - "Elə bil qız imamzadəsidir, nə öldürür, nə də şəfa verir". Yəni bir çözüm yolu tapılmalıdır ki, münaqişələr həll olunsun. Bu da bir həqiqətdir ki, Netanyahu hakimiyyətdə qalmaq üçün müharibələrin dayandırılmasını istəmir. Çünki hazırda onun məhkəməsi gedir. Oktyabrda seçkilər keçirilməlidir İsraildə və xalq da onun siyasətindən narazı olduğu üçün ola bilər seçilməsin. Düzdür, yerinə başqası seçilsə də, İsrailin siyasətində elə ciddi dəyişiklik baş verməyəcək, amma hər halda, gözləyək.

İsrailin nüvə silahına gəldikdə, bu məsələ konkret olaraq memorandumda olmasa da, danışıqlarda qeyd edilməsi mümkündür. İsrail rəsmən etiraf etməsə də, dəfələrlə nüvə silahına sahib olduğuna işarə edib və bunu bütün dünya bilir. Hətta bəzi ölkələr, Amerikanın özündə bir sıra siyasi şəxslər bu məsələni ayrıca qeyd ediblər. İran İsrailin nüvə potensialı ilə bağlı təftiş tələb etməsə də, hər zaman bəyanatlarında bu məsələyə toxunub.

***- Müharibə dövründə İranın hava hücumu etdiyi ərəb ölkələri ilə münasibətlərini necə görürsünüz yaxın aylar ərzində? Bir ara xəbər yayıldı ki, ABŞ İranın dondurulmuş pullarının bir hissəsini həmin ölkələrə təzminat olaraq verəcək...***

- Amerika İranın dondurulmuş vəsaitini Körfəzsahili ərəb ölkələrinə təzminat şəklində verəcəyini dedi, amma söz olaraq qaldı. Hər halda bu haqda nə memorandumda yazılıb, nə də danışıqlar mövzusudur. Əksinə, qərara alınıb ki, İranın dondurulmuş 12 milyard dollar həcmində vəsaitin əvvəl 6 milyard dollarını, sonra da qalan hissəsi geri qaytarılsın. Amma söhbət var: Amerika şərtlər qoyur ki, bəzi mallar ondan alınmalıdır və ya bu pullardan nəzarətli formada istifadə edilsin və sair. İran əslində o pullarla xalq üçün zəruri olan məhsulları almaq istəyir. Xüsusilə də un, yağ, düyü və sair kimi ərzaq məhsullarının, eləcə də dərmanların alınmasına ehtiyac var. Onu da qeyd edim ki, İran bu məhsulları istədiyi ölkədən ala bilər.

***- Danışıqların gedişatına, əldə olunan razılaşmalara nəzər saldıqda, prosesi İranın maraqları baxımından qənaətbəxş hesab etmək olar?***

- Bilirsiniz, müharibə aparan ölkələr arasında bir razılaşma və ya memorandum imzalanarsa, xüsusilə də bir tərəfdə ABŞ varsa, nəticələr ürəyincə olmayacaq. Sadəcə imkanlar daxilində vəziyyətə baxılır və danışıqlar İranı qane etməsə belə, hər halda, proses Amerikanın istədiyi kimi getməyəcək. Yəni Amerikanın timsalında Tramp çox deyirdi ki, İranda rejim dəyişsin, uranın zənginləşdirilməsi sıfır olsun, İran sivilizasiyasını məhv edəcəm, nə bilim o olsun, bu olsun, amma dediklərinin heç biri baş vermədi.

Ona görə də danışıqlar iki ay ərzində sülh sazişi ilə tamamlanmasa bəzi problemlərin yaranması mümkün ola bilər. Əslində Trampa inam yoxdur və İran da ona güvənmir. Danışıqlar getdiyi bir vaxtda dünən yenə bəzi narahatedici açıqlamalar vermişdi, hansı ki, diplomatik danışıqlar prosesinin getdiyi bir vaxtda belə şeylər yolverilməzdir.

> *Danışıqlar iki ay ərzində sülh sazişi ilə tamamlanmasa, bəzi problemlərin yaranması mümkün ola bilər*

Bəzi şeylər var, məsələn, ABŞ-nin 250-ci ildönümüdür, dünya bazarında neftin halaşması, qarşıdan gələn seçkilər və sair Trampa təzyiqləri artırır, həm də, bəzi imkanları tükəndiyi üçün onları bərpa etməyə vaxt qazanmaq üçün danışıqlarla baş aldatmağa çalışması mümkündür. Əsas odur memorandum imzalanıb və buna əsasən artıq Hörmüz boğazı açılıb, gəmilər sərbəst hərəkət edir, İrana iki ay ərzində neftini sərbəst satmağa imkan verilib.

***- İran bundan sonra qonşu ölkələrlə münasibətini necə qurmalıdır? Axı müharibə dövründə hansı qonşunun necə davrandığını gördü...***

- İran hər zaman bəyan edib ki, qonşu dövlətlərlə dostluq və qardaşlıq münasibətlərinə malikdir. Amma həm də tələb edib ki, qonşular da başqa ölkələrlə əlaqələrini İranın əleyhinə qurmamalıdır. Məsələn, müharibə zamanı yaxşı münasibətimiz olan Oman icazə vermədi öz ərazisindən İrana hücum edilsin. Amma bəzi Körfəz ölkələri əksini etdi. Hər halda müharibə zamanı başa düşdülər ki, Amerika hərbi bazaları onların heç də təhlükəsizliyini təmin etmir. Ona görə də İranla əlaqələrini gücləndirmələri daha yaxşı olardı.

İranın qonşuları ilə münasibətləri yaxşıdır. Məsələn, Pakistan müharibənin başa çatması vasitəçilik missiyasını öz üzərinə götürdü, Qətər də öz töhfəsini verdi, baxmayaraq ki, müharibə zamanı bu ölkə ilə də problemlər yaşanmışdı. Digər qonşulara gəldikdə, İraq, Azərbaycan, Türkiyə, Türkmənistan, hətta Xəzərin o başında yerləşən Rusiya ilə yaxşı münasibətlərimiz var. Əsas odur təhlükəsizlik yaransın, ölkələrin bir-birinə inamı, etibarı olsun. Amerika bazalarını regiona gətirmək lazım deyil. İndi İranın bir planı var ki, Körfəz ölkələri ilə birlikdə bölgədə hansısa formada bir iş görsünlər.

Amerika nəinki bölgəmizə, öz müttəfiqlərinə də xeyir gətirmir. Tramp gələndən sonra Amerikanın etibarını dünyada sarsıdıb. Noyabrda Konqresə keçiriləcək seçkilərində çox güman ki, Respublikaçılar uduzacaq və Prezident seçkilərini də qazanmayacaqları aydındır. Trampın adı Amerika tarixində qara səhifəyə düşüb, sorğulara əsasən reytinqi 27 faizə enib. Dünyanın heç bir ölkəsində onu istəmirlər. Təsəvvür edin, Tramp öz müttəfiqlərini bir kənara qoyaraq Ukraynanın torpaqlarını işğal edən Rusiyaya dəstək verirdi. İndi Çin də güclənir, yəni gələcəkdə çox gözlənilməz hadisələr baş verəcək. Ona görə də region ölkələri öz aralarında iqtisadi-siyasi-ticari əlaqələri gücləndirməlidirlər. Yalnız bu vəziyyətdə ölkələrimiz inkişaf edə və təhlükəsiz ola bilərlər.

*✍ Vüsal Tağıbəyli*

# Kölgədə qalan qadın qəhrəmanlar

***Tarixboyu müharibəyə kişilər getsə də, o döyüşlərdə qadın izi hər zaman olub. İstər arxa cəbhədə paltar tikib yemək hazırlamaqla, yaralılara tibbi yardım göstərməklə, istər məcburiyyət yarandıqda silaha sarılmaqla. Amma nədənsə “ordu”, “əsgər” deyəndə gözümüzün önünə ilk kişi obrazı gəlir. Bəs bunun səbəbi nədir? Niyə kollektiv düşüncəmizdə ordu ilə kişi obrazı arasında bu qədər güclü əlaqə formalaşıb?***



*“Məqsəd Vətənə xidmətin cinsinin olmadığını qəbul etməkdir*

*Ordu dedikdə dövlətin müdafiəsi üçün çalışan bütün hərbçilər nəzərdə tutulmalıdır*

*Ordu anlayışında kişi və qadın bölgüsü yoxdur*

*Cəmiyyət qadın hərbçiləri daha çox gördükcə, “ordu-kişi” assosiasiyası zəifləməyə başlayır*

## Müzakirə

Səbəbini 26 İyun - Azərbaycan Silahlı Qüvvələr Günü ilə bağlı “Həftə İçi”nə danışan müsahiblərimizlə araşdırmağa çalışdıq.

■ **Təmiz Dünya Qadınlara Yardım İctimai Birliyinin rəhbəri Mehriban Zeynalovanın fikrincə, bu, təkcə Azərbaycana aid deyil. Dünyanın əksər ölkələrində ordu uzun müddət “kişi peşəsi” kimi qəbul olunub:**

“Tarixən müharibələrdə əsas döyüş qüvvəsini kişilər təşkil etdiyindən, kollektiv yaddaşda da əsgər obrazı kişi simasında formalaşıb. Lakin tarixə diqqətlə baxdıqda görürük ki, qadınlar da hər zaman müharibələrin iştirakçısı olub. Döyüşçü, kəşfiyyatçı, hərbi həkim, rabitəçi, komandir və ya müqavimət hərəkatlarının üzvü kimi.

Bir çox ölkələrdə qadınlar hərbi xidmətin bütün sahələrində təmsil olunurlar. ABŞ, İsrail, Kanada, Norveç, İsveç, Avstraliya və bir sıra digər ölkələrdə qadınlar döyüş bölmələrində, xüsusi təyinatlı hissələrdə, aviasiyada və yüksək komandanlıq səviyyələrində xidmət edirlər. Bir çox NATO ölkələrində qadınların orduda rolu artıq gender məsələsi deyil, peşəkarlıq məsələsi kimi qiymətləndirilir.

Azərbaycanda da qadınların hərbi xidmət ənənəsi yeni deyil. Birinci Qarabağ müharibəsində qadın könüllü batalyonunun yaradılması, qadınların döyüşlərdə və arxa cəbhədə fəal iştirakı bunun sübutudur. İkinci Qarabağ müharibəsində isə qadınlar hərbi qulluqçu, həkim, rabitəçi, jurnalist və digər istiqamətlərdə xidmət göstərərək qələbəyə öz töhfələrini verdilər”. Mehriban xanım deyir ki, əslində, cəmiyyətlərdə ”kişi - qoruyan”, ”qadın - qorunan” modeli əsrlərboyu formalaşıb. Onun sözlərinə görə, bu yanaşma müəyyən mənada qadınların əməyini və töhfəsini kölgədə qoyur: “Digər tərəfdən, qadınların orduda xidmət etməsi faktını vurğulamaq da vacibdir. Çünki görünməyən əməyin görünən olması bərabərliyin şərtlərindən biridir. Məncə, məqsəd qadınları kişilərlə müqayisə etmək və ya rəqabət yaratmaq deyil. Məqsəd Vətənə xidmətin cinsinin olmadığını qəbul etməkdir. Qəhrəmanlıq, peşəkarlıq, fədakarlıq və vətənpərvərlik nə kişi, nə də qadın xüsusiyyətidir, bunlar insan keyfiyyətləridir. Vətən hər birimiz üçün Vətəndir”.

Ümid Partiyasının sədr müavini Tamilla Qulami bildirir ki, “ordu” deyəndə göz önünə silahlı kişi əsgərlərin gəlməsinin əsas səbəblərindən biri qadınların müasir dövrdə döyüşlərdə iştirak etməməsi deyil, tarix boyu hərb sahəsinin əsasən kişilərlə əlaqələndirilməsi və bu obrazın cəmiyyətin alt şüurunda formalaşmasıdır:

“Halbuki tarixdə qadın döyüşçülərin sayı heç də az olmayıb. Tomris kimi hökmdar qadınlar öz xalqını müdafiə etmək üçün ordulara rəhbərlik edib, döyüş meydanlarında böyük qələbələr qazanıblar. Çağdaş dövrümüzdə qadınların ordudakı rolu daha da genişlənib. Azərbaycan Ordusunda qadın hərbçilər məsul vəzifələrdə çalışır, Vətənə xidmət edirlər. Onlar yalnız arxa cəbhədə deyil, zəruri hallarda ön xəttdə də öz vəzifələrini yerinə yetirirlər. Mən bu qadınları bir az da gizli qəhrəmanlar adlandırardım”.

Buna baxmayaraq, hələ də “əsgər” deyəndə ağlımıza kişi gəlməsinə gəldikdə, T.Qulami hesab edir ki, bunun əsas səbəblərindən biri də uzun illər hərbi mövzuların kişi qəhrəmanlar üzərindən təqdim olunmasıdır, təbliğatın o istiqamətdə aparılmasıdır: “Həm də etiraf edək ki, kişilərin sayı da orduda müqayisəolunmaz dərəcədə çoxdur. Filmlərdə, kitablarda, dərsliklərdə və mediada kişi döyüşçülərin obrazı adətən daha çox ön plana çıxarılıb. Nəticədə cəmiyyətin kollektiv yaddaşında hərbçi obrazı kişi siması ilə eyniləşib. Ona görə də ”ordu” sözü fikrimizdə ”kişi” sözü ilə assosiasiya olur.

Müharibələr və böhranlar zamanı tarix dəfələrlə sübut edib ki, qadınlar lazım gəldikdə, ən ağır sınaqlardan keçməyə və ölkələrinin müdafiəsində fədakarlıq göstərməyə qadirdirlər. Ona görə də “ordu” anlayışını yalnız kişilərlə məhdudlaşdırmaq düzgün deyil. Ordu dedikdə dövlətin müdafiəsi üçün çalışan bütün hərbçilər nəzərdə tutulmalıdır. Bu sırada kişilərlə yanaşı, çiyin-çiyinə xidmət edən, risklərə sinə gərən və Vətən naminə çalışan qadınlar da var. Onların xidmətini görmək və dəyərləndirmək həm tarixi ədalətin, həm də müasir cəmiyyətin tələbidir”.

■ **Müstəqil Həmkarlar Birliyinin sədri Fuad Əliyev bu məsələyə “Ordu yalnız kişilərdən ibarətdir” prizmasından baxmadığını deyir:** “Tariximizə nəzər salsaq, görərik ki, Vətənin müdafiəsində qadınlarımız da hər zaman fəal iştirak ediblər. Sadəcə olaraq, orduda say baxımından kişilər üstünlük təşkil etdiyinə görə, insanların ilk assosiasiyası da çox vaxt kişilərlə bağlı olur. Amma bu, qadınlarımızın xidmətini və qəhrəmanlığını heç bir şəkildə azaltmır.

Birinci Qarabağ müharibəsinin iştirakçısı, Azərbaycanın tanınmış qadın snayperlərindən biri olan Novrəstə Yusifova bunun ən parlaq nümunələrindəndir. O, öz şücaəti ilə tariximizdə iz qoyub.

Ümumiyyətlə, Qarabağ müharibələrində və digər dövrlərdə həm cəbhədə, həm də arxa cəbhədə fədakarlıq göstərən yüzlərlə qadınımız olub. Mən hesab edirəm, “ordu” anlayışında kişi və qadın bölgüsü yoxdur. Ordu dedikdə göz önünə Vətən uğrunda xidmət edən, onun təhlükəsizliyi və bütövlüyü naminə çalışan insanlar gəlməlidir. Bu insanların arasında həm kişilər, həm də qadınlar var və hər biri Azərbaycanın güclü ordusunun ayrılmaz hissəsidir”.

■ **Psixoloq Aygün Ağabalayeva isə bildirir ki, “ordu” deyəndə insanların böyük hissəsinin zehnində ilk olaraq silahlı, fiziki cəhətdən güclü kişi obrazının canlanması təsadüfi deyil. Bu, nə qadınların hərbi xidmətə yararsız olması, nə də onların xidmətlərinin əhəmiyyətsiz sayılması ilə bağlıdır:**

“Məsələ insan psixikasının məlumatları necə emal etməsi, tarixi təcrübələrin kollektiv şüurda necə formalaşması və sosial stereotiplərin nəsildən-nəslə necə ötürülməsi ilə əlaqədardır. Psixologiyada bunun izahı üçün bir neçə mühüm anlayış mövcuddur - tarixi yaddaşın təsiri, gender stereotiplərinin rolu, görünənlik effekti.

Beyin yeni məlumatla qarşılaşanda ən tanış və ən çox təkrarlanan obrazı xatırladır. Buna görə də “ordu” sözünü eşidəndə ilk assosiasiya çox vaxt kişi olur. Bu, şüurlu seçim deyil, avtomatik psixoloji prosesdir. Gender stereotiplərinin roluna gəlincə, uşaqlıqdan etibarən insanlar müəyyən sosial rolları öyrənirlər. Oğlan uşaqlarına daha çox güc, mübarizə, qoruma və risk alma ilə bağlı mesajlar verilir. Qız uşaqları isə uzun müddət qayğı, ailə və emosional dəstək rolları ilə əlaqələndirilib. Bu bölgü təkcə ailədə deyil, məktəbdə, mediada və mədəniyyətdə də təkrarlanıb. Nəticədə “əsgər”, “komandir”, “döyüşçü” kimi anlayışlar kişi obrazı ilə əlaqələndirilib.

Halbuki müasir psixoloji tədqiqatlar göstərir ki, vətənpərvərlik, liderlik, dözümlülük, risk qarşısında soyuqqanlılıq və fədakarlıq kimi xüsusiyyətlər cinsiyyətə bağlı deyil. Bu keyfiyyətlər həm qadınlarda, həm də kişilərdə inkişaf edə bilər. Gələk görünənlik effektinə. Psixologiyada belə bir prinsip var: insanlar daha çox gördüklərini daha çox xatırlayırlar. Əgər televiziya reportajlarında, filmlərdə, dərsliklərdə və ictimai tədbirlərdə əsasən kişi hərbçilər göstərilirsə, beyin ordunu həmin görüntülərlə əlaqələndirir.

Bu o demək deyil ki, qadınlar orduda yoxdur. Sadəcə onların fəaliyyəti uzun illər ərzində kifayət qədər görünən olmayıb. Son illərdə qadın hərbçilərin, zabitlərin və müxtəlif sahələrdə xidmət göstərən qadınların daha çox tanıdılması cəmiyyətin təsəvvürlərini dəyişdirməyə başlayıb. Sosial təsəvvürlər bir gündə formalaşmadığı kimi, bir gündə də dəyişmir. Cəmiyyət qadın hərbçiləri daha çox gördükcə, onların peşəkarlığı və xidmətləri haqqında daha çox məlumat əldə etdikcə, “ordu - kişi” assosiasiyası zəifləməyə başlayır. Onun yerini daha geniş və reallığa uyğun bir təsəvvür tutur: “ordu - vətəni qoruyan insanlar”.

✍ ***Arzu Zeynallı***

---

Cəmiyyət




# Nişanlanma, sürət hədləri və cərimələr

***Azərbaycanda yol hərəkətinin təşkili, sürət hədləri və cərimələrlə bağlı müzakirələr yenidən gündəmə gəlib. Milli Məclisin deputatı Hikmət Babaoğlu parlamentin plenar iclasında çıxışı zamanı magistral yollarda standartlara uyğun olmayan nişanlanma, yol ölçüləri və sürücülərin tez-tez üzləşdiyi cərimələrdən narazılığını ifadə edib. Deputatın səsləndirdiyi fikirlər yol infrastrukturunun keyfiyyəti, hərəkətin təşkili və sürücülərin gündəlik qarşılaşdığı problemlərlə bağlı mühüm suallar doğurur.***

*“Bəzi hallarda sürücülər sürət hədlərini, radarların yerləşdiyi əraziləri və hərəkət məhdudiyyətlərini izləmək üçün müxtəlif tətbiqlərdən istifadə etməyə məcbur qalırlar*

*Bu cür ziddiyyətlər sürücülərin yol hərəkəti qaydalarını düzgün anlamaqda çətinlik çəkməsinə və nəticədə məcburi qayda pozuntularına yol açır*

Son illər beynəlxalq və magistral yolların tikintisi, mövcud yolların genişləndirilməsi, eləcə də işğaldan azad olunmuş ərazilərdə müasir yol şəbəkəsinin yaradılması istiqamətində böyük layihələr həyata keçirilir. Yeni magistrallar, körpülər və tunellər ölkənin nəqliyyat xəritəsini əhəmiyyətli dərəcədə dəyişib. Bununla yanaşı, sürücülər arasında yol hərəkətinin təşkili ilə bağlı narazılıqların da artdığı müşahidə olunur.

Deputatın fikrincə, müasir dövrdə nəqliyyat sisteminin əsas məqsədlərindən biri insanların və yüklərin daha qısa müddətdə mənzil başına çatmasını təmin etməkdir. Təhlükəsizlik prioritet olaraq qalmalı olsa da, bəzi hallarda sürət məhdudiyyətlərinin real yol şəraitinə uyğun müəyyənləşdirilməməsi sürücülər üçün əlavə çətinlik yaradır. Xüsusilə magistral yolların texniki göstəriciləri yüksək olduğu halda tətbiq edilən bəzi sürət hədlərinin sürücülər tərəfindən mübahisəli qarşılandığı bildirilir.

Müzakirələrin əsas mövzularından biri də yol nişanlanması və hərəkət zolaqlarının ölçüləridir. Deputat qeyd edib ki, bəzi ərazilərdə zolaqların eni, parklanma yerlərinin təşkili və yol nişanlarının yerləşdirilməsi sürücülərin rahat hərəkətinə mane olur. Nəticədə sürücülər bəzən qaydaları pozmaq niyyətində olmadan məcburi manevrlər etməli olur və bu da cərimələrlə nəticələnir. Xüsusi narahatlıq doğuran məsələlərdən biri müşahidə kameralarının fəaliyyəti ilə bağlıdır. Son illər yol hərəkəti qaydalarına nəzarətin gücləndirilməsi məqsədilə paytaxtda və magistral yollarda minlərlə kamera quraşdırılıb. Bu sistem qayda pozuntularının aşkarlanmasında mühüm rol oynasa da, bəzi sürücülər hesab edirlər ki, yolun fiziki şəraiti və nişanlanmadakı problemlər nəzərə alınmadan tətbiq olunan cərimələr ədalətliliklə bağlı suallar yaradır.

Deputatın çıxışında diqqətçəkən məqamlardan biri də sürücülərin naviqasiya proqramlarından istifadəsinin artıq zərurətə çevrilməsi ilə bağlı fikirləri olub. Onun sözlərinə görə, bəzi hallarda sürücülər sürət hədlərini, radarların yerləşdiyi əraziləri və hərəkət məhdudiyyətlərini izləmək üçün müxtəlif tətbiqlərdən istifadə etməyə məcbur qalırlar. Bu isə diqqətin bir hissəsinin yoldan yayınmasına səbəb ola bilər.

Mütəxəssislər hesab edirlər ki, yol hərəkətinin təhlükəsiz təşkili yalnız cərimələrin artırılması və ya nəzarət vasitələrinin sayının çoxaldılması ilə məhdudlaşmamalıdır. Yol infrastrukturu layihələrinin hazırlanması zamanı beynəlxalq standartların tətbiqi, hərəkət zolaqlarının normativlərə uyğun layihələndirilməsi, sürət hədlərinin yolun texniki göstəricilərinə əsasən müəyyənləşdirilməsi və nişanlanmanın sürücülər üçün aydın olması vacib şərtlərdən hesab olunur. Ekspertlərin fikrincə, sürücülərin əsas gözləntisi daha çox cərimənin tətbiqi deyil, qaydaların aydın və məntiqli şəkildə təşkil edilməsidir. Əgər yolun geometrik parametrləri, nişanlanma sistemi və sürət rejimi arasında uyğunluq təmin olunarsa, həm qayda pozuntularının sayı azalacaq, həm də yol hərəkətinin təhlükəsizliyi daha effektiv şəkildə təmin ediləcək.

■ **Beynəlxalq dərəcəli təlimçi, nəqliyyat məsələləri üzrə ekspert Adil Nəbiyevin sözlərinə görə, Azərbaycanda bəzi küçə və yollarda parklanma yerlərinin, yol nişanlarının və üfüqi nişanlanma xətlərinin standartlara tam uyğun şəkildə təşkil olunmaması bir sıra sistemli səbəblərlə bağlıdır.**

Ekspert bu səbəblər sırasında layihələndirmə ilə icra mərhələsi arasındakı uyğunsuzluqları, qurumlararası koordinasiyanın zəif olmasını, şəhər infrastrukturunda sonradan edilən dəyişiklikləri, kifayət qədər müntəzəm audit və monitorinqin aparılmamasını, eləcə də bəzi ərazilərdə məkan məhdudiyyətlərini qeyd edib.

Onun fikrincə, mövcud vəziyyətin əsas problemlərindən biri yol nişanlarının, nişanlanma xətlərinin və parklanma yerlərinin vahid sistem kimi deyil, ayrı-ayrı elementlər şəklində idarə olunmasıdır. Nəticədə bir çox hallarda uyğunsuzluqlar yaranır: parklanma yerləri təşkil edilsə də, köhnə qadağanedici nişanlar yerində qalır, yol hərəkət sxemi dəyişdirilir, lakin köhnə nişanlanma xətləri silinmir və ya yeni parklanma sahələrinə dair məlumatverici nişanlar quraşdırılmır. A. Nəbiyev vurğulayır ki, bu cür ziddiyyətlər sürücülərin yol hərəkəti qaydalarını düzgün anlamaqda çətinlik çəkməsinə və nəticədə məcburi qayda pozuntularına yol açır. Onun fikrincə, çıxış yolu yol hərəkətinin təşkili zamanı bütün elementlərin - nişanlar, üfüqi nişanlanma və parklanma yerlərinin - kompleks şəkildə planlaşdırılması, mütəmadi yoxlanılması və mövcud vəziyyətə uyğun olaraq yenilənməsidir. Ekspert əlavə edib ki, bu yanaşma həm sürücülər üçün daha aydın və anlaşılan yol infrastrukturu yaradacaq, həm də qayda pozuntuları və yol-nəqliyyat hadisələrinin sayının azalmasına töhfə verəcək.

✍ ***Sevinc***

---



■ **İnformasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin təmin edilməsi İnformasiyalaşdırma sahəsində dövlət siyasətinin əsas istiqamətləri sırasına daxil edilir.**

Bu, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” qanuna təklif edilən dəyişiklikdə əksini tapıb. Layihəyə əsasən, dövlət informasiya ehtiyatları və sistemlərinin (kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə məxsus informasiya ehtiyatları və sistemləri, eləcə də kritik informasiya infrastrukturu, Azərbaycan Respublikası Mərkəzi Bankının və maliyyə bazarlarında fəaliyyətinə nəzarət edilən subyektlərin (dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin) informasiya infrastrukturu istisna olmaqla) təhlükəsizlik meyarları üzrə monitorinqinin və auditinin aparılması (qurum) tərəfindən müəyyən edilir.




■ **Azərbaycanda sığorta sektorunun inkişafının növbəti mərhələsində risk əsaslı nəzarət mexanizmlərinin tam tətbiqi əsas prioritetlərdən olacaq.**

Bunu Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin birinci müavini Əliyar Məmmədyarov Bakıda keçirilən XI Azərbaycan Beynəlxalq Sığorta Forumunda (AIIF-2026) deyib. Onun sözlərinə görə, növbəti strateji dövrdə risk əsaslı nəzarət mexanizmlərinin tam formalaşdırılması, reaktiv nəzarət modelindən proaktiv nəzarət modelinə keçid, rəqəmsal həllərin tətbiqinin genişləndirilməsi və qabaqcıl beynəlxalq təcrübələrin öyrənilməsi istiqamətində işlər davam etdiriləcək.



■ **Azərbaycan Cənubi Qafqazın ən güclü dövləti olmaqla yanaşı, regiondan kənarda da təsir imkanlarını genişləndirərək, beynəlxalq münasibətlər sistemində “orta güc” kimi mövqeyini möhkəmləndirib.**

Bunu Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinin direktoru Eldar Namazov ”Azərbaycan orta güc kimi: xarici siyasət, regional təsir və qlobal iştirak” mövzusunda keçirilən konfransda deyib. O bildirib ki, hərbi sahədə süni intellektin tətbiqinin genişlənməsi ciddi strateji əhəmiyyət daşıyan tendensiyadır. “Dünya sürətlə dəyişir və beynəlxalq münasibətlər sistemində yeni meyarlar ön plana çıxır. Azərbaycan da bu qlobal proseslərdə fəal iştirak etməli, bu sahədə öz mövqeyini və aparıcı rolunu daha da gücləndirməlidir”, - Eldar Namazov vurğulayıb.



■ **“Bakı-Tbilisi-Bakı marşrutu üzrə qatarlarda aktiv bilet satışı dövrünün hazırkı 30 gündən 90 günə qədər artırılması mexanizminin yaxın günlərdə tətbiqini planlaşdırırıq”.**

Bunu qurumun Sərnişin daşımaları departamentinin rəisi Azər Fərəcov bildirib. Onun sözlərinə görə, Azərbaycan Dəmir Yollarında bilet satışı həm onlayn (ADY-nin rəsmi saytı və “ADY Mobile” tətbiqi üzərindən), həm də dəmiryol kassalarında tam şəffaf şəkildə həyata keçirilir: “ADY-də 2024-cü ilin noyabr ayından tətbiq edilən dinamik qiymət siyasətinə əsasən, sərnişinlər biletləri 25-30 gün əvvəl aldıqda daha sərfəli qiymətlərdən yararlana bilirlər.



■ **Rəqəmsal tədqiqatın aparılması qaydası olacaq. Bu, Milli Məclisin İnsan hüquqları komitəsinin iclasında müzakirəyə çıxarılan “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” qanuna təklif edilən yeni fəsildə əksini tapıb.**

Layihəyə əsasən, informasiya infrastrukturu obyektlərində baş vermiş kiberinsidentlər barədə əldə edilən məlumatlar əsasında Rəqəmsal tədqiqat mərkəzi tərəfindən onların risk əsaslı qiymətləndirilməsi aparılır. Qiymətləndirilmənin nəticəsinə uyğun olaraq rəqəmsal tədqiqat mərkəzi rəqəmsal tədqiqatı aparılmalı olan kiberinsidentləri müəyyən edir. Rəqəmsal tədqiqat mərkəzi tərəfindən sahə üzrə fəaliyyət göstərən Kompüter insidentlərinə qarşı mübarizə mərkəzləri (CERT) kiberinsidentlərin rəqəmsal tədqiqatının aparılmasına cəlb edilə bilərlər.



■ **Ermənistanda həbslər davam edir. Dünən səhər “Ayakve” təşəbbüsünün koordinatoru Avetik Çalabyan saxlanılıb.**

Ermənistan İstintaq Komitəsindən bildirilib ki, Çalabyan İstintaq Komitəsi tərəfindən araşdırılan cinayət işi çərçivəsində tutulub. Onun saxlanması barədə əlavə məlumat verilməyib, rəsmi açıqlamanın daha sonra olacağı qeyd edilib. Xatırladaq ki, ”Ayakve” təşəbbüsü aprelin sonlarında Samvel Karapetyanın rəhbəri olduğu ”Güclü Ermənistan” blokuna qoşulub. Tərəflər mövcud hökuməti seçkilər yolu ilə dəyişmək, yeni hökumət yaratmaq üçün qüvvələri birləşdirmək barədə öhdəlik götürüblər. Ermənistanda parlament seçkiləri 7 iyun 2026-cı ildə keçirilib. Hazırkı Baş nazir Nikol Paşinyanın rəhbəri olduğu “Vətəndaş müqaviləsi” partiyası seçkilərdə qalib gəlib.

# Azərbaycanda əmlak amnistiyası müzakirəsi

**_Azərbaycanda sənədsiz evlərə amnistiya məsələsi yenidən gündəmə gətirilib. Millət vəkili Kamal Cəfərov parlamentdə çıxışı zamanı ölkədə 500 mindən çox sənədsiz evin mövcud olduğunu bildirib və bu problemin həlli üçün xüsusi dövlət proqramının hazırlanmasını, amnistiya tətbiq edilməsini təklif edib. Deputat qeyd edib ki, mövcud vəziyyət təkcə sosial deyil, həm də iqtisadi baxımdan ciddi itkilərə səbəb olur. Onun sözlərinə görə, hesabatlarda hüquqi şəxslərin əmlak vergisi üzrə 36,9 milyon manat, dövlət rüsumları üzrə isə 57,8 milyon manat icra azlığı qeydə alınıb._**



## Əmlak

Bu isə potensial gəlir mənbələrinin tam reallaşmaması ilə əlaqələndirilir. K.Cəfərovun fikrincə, sənədsiz evlər probleminin həlli dövlət büdcəsinə əlavə gəlir gətirməklə yanaşı, vətəndaşların sosial rifahını da yaxşılaşdıra bilər. Hazırda sənədsiz evlərdə yaşayan insanlar bir sıra fundamental hüquqlardan tam şəkildə yararlana bilmirlər. Onlar qeydiyyata düşməkdə çətinlik çəkir, dövlət xidmətlərinə çıxış imkanları məhdud olur, əmlakı girov qoyaraq bank kreditlərindən istifadə edə bilmirlər. Eyni zamanda, belə evlərin vərəsəliklə ötürülməsi də hüquqi baxımdan problemli qalır.

Deputatın sözlərinə görə, bu amillər daşınmaz əmlak bazarında da ciddi disbalans yaradır. Sənədsiz evlər rəsmi qeydiyyatda olan mənzillərlə müqayisədə 20-30 faiz daha ucuz qiymətə satılır və banklar tərəfindən girov kimi qəbul edilmir. Nəticədə vətəndaşların əmlakının real iqtisadi dəyəri aşağı düşür və kapital dövriyyəsi məhdudlaşır.

K. Cəfərov çıxışında beynəlxalq təcrübəyə də istinad edib. O, Türkiyədə 2018-ci ildə tətbiq olunan "İmar Barış" proqramını nümunə göstərərək bildirib ki, analoji model Azərbaycanda da tətbiq oluna bilər. Həmin proqram çərçivəsində müəyyən kateqoriyalara aid olan tikililərə çıxarışların verilməsi ilə bağlı genişmiqyaslı tənzimləmə aparılmışdı.

Deputat vurğulayıb ki, Azərbaycan üçün də oxşar yanaşma mümkün ola bilər, lakin burada istisnalar nəzərə alınmalıdır. Belə ki, nəqliyyat və enerji xətlərinin mühafizə zolaqlarında, riskli ərazilərdə, strateji və mübahisəli torpaqlarda yerləşən tikililər bu prosesdən kənarda saxlanıla bilər. Onun təklifinə görə, şəhərsalma və memarlıq sahəsində xüsusi proqram qəbul edilməli, sənədsiz evlər mərhələli şəkildə hüquqi dövriyyəyə daxil edilməli və geniş amnistiya mexanizmi tətbiq olunmalıdır. Bu yanaşma həm sosial ədalətin təmininə, həm də iqtisadi dövriyyənin genişlənməsinə xidmət edə bilər.

■ **Mövzu ilə bağlı əmlak məsələləri üzrə ekspert Elnur Azadov bildirir ki, Türkiyədə tətbiq olunan modellərin Azərbaycana tam şəkildə köçürülməsi mümkün deyil, çünki iki ölkənin qanunvericilik bazası və şəhərsalma standartları əhəmiyyətli dərəcədə fərqlənir.**

Ekspertin sözlərinə görə, sənədsiz tikililərin leqallaşdırılması prosesi sadə və qısa müddətli həll kimi təqdim olunsa da, praktikada bu, uzunmüddətli və mərhələli mexanizmdir. Onun fikrincə, xüsusilə təhlükəsizlik və şəhərsalma normalarına zidd olan ərazilərdə inşa edilmiş evlər bu prosesdən istisna edilməlidir.

E.Azadov qeyd edir ki, mühafizə zonalarında yerləşən tikililərə amnistiya tətbiqi mümkün deyil. Buraya kommunikasiya xətlərinin üzərində və ya yaxınlığında inşa edilən evlər, magistral nəqliyyat infrastrukturu altında və ya ətrafında yerləşən yaşayış sahələri, dəmir yolu xətlərinə yaxın məsafədə tikilən evlər, eləcə də meşə fondu və su hövzələrinin ərazilərində salınmış yaşayış obyektləri daxildir. Bu tip tikililər həm hüquqi, həm də təhlükəsizlik baxımından ciddi risk daşıyır və onların leqallaşdırılması qanunvericilik çərçivəsində nəzərdə tutulmur.

Ekspertin diqqət çəkdiyi əsas məqamlardan biri də belə evlərin gələcək taleyi ilə bağlıdır. Onun sözlərinə görə, bu tip tikililərin ya tamamilə sökülməsi, ya da alternativ həll yollarının tapılması məsələsi dövlətin şəhərsalma siyasətindən asılıdır. Təcrübə isə göstərir ki, artıq bu istiqamətdə konkret addımlar atılıb.

O, nümunə kimi Biləcəri qəsəbəsini göstərib. Ekspertin xatırlatmasına görə, ötən il dəmir yolu xətlərinə yaxın ərazidə yerləşən təxminən 140 ev sökülüb. Bu hadisə göstərir ki, təhlükəsizlik zonalarında yerləşən tikililərlə bağlı yanaşma sərtləşdirilir və qanunvericilik tələblərinə uyğun addımlar mərhələli şəkildə icra olunur.

■ **Mövzu ilə bağlı Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri Vüqar Oruc isə bildirir ki, əmlak amnistiyası təkcə sosial güzəşt mexanizmi deyil, eyni zamanda ölkədə iqtisadi aktivliyin artırılması və daşınmaz əmlak bazarının rəsmiləşdirilməsi üçün strateji alət kimi çıxış etməlidir.**

V. Oruc hesab edir ki, sənədsiz evlərin rəsmiləşdirilməsi və mülkiyyət hüququnun tanınması vətəndaşların iqtisadi davranış imkanlarını genişləndirir. Belə ki, hüquqi status qazanan əmlak girov kimi istifadə oluna, sərbəst alqı-satqıya çıxarıla və bank kreditləri üçün təminat rolunu oynaya bilir. Bu isə həm fərdi maliyyə imkanlarını artırır, həm də ümumi iqtisadi dövriyyəni gücləndirir.

Ekspert eyni zamanda qeyd edir ki, bu proses bütün tikililərə şamil oluna bilməz. Onun sözlərinə görə, qanunsuz tikililər arasında xüsusi təhlükə yaradan və hüquqi baxımdan leqallaşdırılması mümkün olmayan obyektlər mövcuddur. Bunlara kollektor və kommunikasiya xətlərinin üzərində inşa edilən evlər, strateji obyektlərin yaxınlığında yerləşən tikililər, yüksək gərginlikli elektrik xətləri altında olan yaşayış sahələri, meşə zolaqları, eləcə də neft və qaz kəmərlərinin keçdiyi ərazilərdə salınmış evlər daxildir. Həmçinin məhkəmə mübahisəli torpaqlar da bu kateqoriyaya aiddir.

Bu tip ərazilərdə yaşayan vətəndaşlarla bağlı isə fərqli yanaşma təklif olunur. V. Oruc bildirir ki, belə hallarda mülkiyyətin rəsmiləşdirilməsi mümkün olmasa da, sosial məsuliyyət prinsipi nəzərə alınmalı və alternativ yaşayış yerlərinin təmin edilməsi istiqamətində dövlət mexanizmləri işlədilməlidir. Yəni məsələ təkcə hüquqi deyil, həm də sosial ədalət çərçivəsində həll edilməlidir.

Ekspertin fikrincə, qanunvericiliyə uyğun ərazilərdə yerləşən tikililərin mütləq şəkildə sənədləşdirilməsi vacibdir. Bu proses mərhələli şəkildə və ümumi amnistiya mexanizmi ilə həyata keçirildikdə həm vətəndaşların fərdi müraciət yükü azalır, həm də inzibati prosedurlar daha sürətli icra olunur. Onun qiymətləndirməsinə görə, ilkin mərhələdə on minlərlə evin rəsmiləşdirilməsi real nəticə hesab oluna bilər, lakin optimal model genişmiqyaslı amnistiya mexanizmidir. V. Oruc həmçinin diqqətə çatdırır ki, Azərbaycanda sənədsiz evlərin böyük hissəsi kənd təsərrüfatı təyinatlı torpaqlarda inşa olunub. Bu isə torpaqların təyinatının dəyişdirilməsi məsələsini gündəmə gətirir. Onun fikrincə, artıq formalaşmış yaşayış massivləri üçün hüquqi mexanizmlərin yaradılması mümkündür və bu, vətəndaşlara real mülkiyyət hüququ qazandırar.

Ekspertin yanaşmasına görə, əmlak amnistiyası yalnız sosial ədalət deyil, həm də fiskal və iqtisadi fayda gətirir. Rəsmiləşdirilmiş əmlaklar daşınmaz əmlak reyestrinin formalaşmasına, bank sektorunun genişlənməsinə və ümumilikdə iqtisadi şəffaflığın artmasına xidmət edir. Bu baxımdan, prosesin dövlət qurumlarının, o cümlədən "ASAN xidmət" və yerli icra strukturlarının koordinasiyalı iştirakı ilə həyata keçirilməsi vacib sayılır.

Bununla yanaşı, ekspert amnistiya ilə bağlı risklərə də diqqət çəkir. Onun sözlərinə görə, belə bir mexanizm yeni qanunsuz tikintilərə stimul yaratmamalıdır. Bu məqsədlə 2023-cü ildən tətbiq olunan kommunal xidmətlərin məhdudlaşdırılması kimi preventiv tədbirlər davam etdirilməli, monitorinq və nəzarət mexanizmləri gücləndirilməlidir.

*"Sənədsiz evlər probleminin həlli dövlət büdcəsinə əlavə gəlir gətirməklə yanaşı, vətəndaşların sosial rifahını da yaxşılaşdıra bilər*

*Mühafizə zonalarında yerləşən tikililərə amnistiya tətbiqi mümkün deyil*

*Qanunvericiliyə uyğun ərazilərdə yerləşən tikililərin mütləq şəkildə sənədləşdirilməsi vacibdir*

✍ **Sevinc**

# Neft qiymətləri müharibədən əvvəlki səviyyələrə qayıdıb

**_Birjalarda xam neft qiymətləri Yaxın Şərqdəki müharibədənəvvəlki səviyyələrə geri qayıdıb. "Brent" markalı xam neftin qiyməti gün ərzində 3 faizdən çox ucuzlaşaraq 75 dollardan aşağı düşüb. Bu rəqəm müharibə başlamadan öncəki gündən bəri ən aşağı göstəricidir. Hazırda "Brent"in bir bareli 74,6 dollara, "Light" markalı xam neftin bir bareli isə 71 dollara satılır. Neft qiymətləri münaqişənin ən qızğın dövründəki pik hədlə müqayisədə hazırda təxminən 40 faiz ucuzlaşıb._**



Ekspertlərin fikrincə, Yaxın Şərqdəki son inkişaflar neft bazarlarında geosiyasi riskin azalmasına və neft qiymətlərini müharibədənəvvəlki səviyyələrə qayıtmasına səbəb olub.

Enerji qiymətlərinin ucuzlaşması Hörmüz boğazından neft tankerlərinin hərəkətinin artması fonunda baş verir. Eyni zamanda, ABŞ və İranın münaqişənin sona çatması istiqamətində irəliləyişlərə işarə edən açıqlamaları da qiymətin aşağıistiqamətli dəyişməsinə təsir göstərir.

Hörmüzdə gəmi trafikinin davamlı artması münaqişənin ən qızğın dövründə boğazda yaranan fasilələri aradan qaldırmaq üçün tətbiq edilən alternativ həllərin effektivliyini də artırıb. Bundan başqa, Beynəlxalq Dəniz Təşkilatı yüzlərlə gəminin Körfəzdən çıxmasına imkan verən təhlükəsizlik zəmanətləri aldığını açıqlayıb.

Qeyd edək ki, Yaxın Şərqdəki 100 gündən çox davam edən münaqişə müddətində birjalarda neft qiyməti 75 ilə 126 dollar arasında kəskin dalğalanmalar nümayiş etdirib. "Brent"in fyuçers qiymətləri münaqişədənəvvəlki son ticarət günündə - fevralın 27-də 72,48 dollar idi. Geosiyasi narahatlıqlar səbəbindən martın 2-də "Brent"in qiyməti 82,37 dollara, martın 6-da isə 90 dollara yüksəlib və həftəni 92,69 dollarda tamamlayıb. Bu, 2020-ci ilin aprel ayından bəri neft qiymətlərində təxminən 27,9 faizlə ən sürətli həftəlik artım olub.

Qiymətdəki dalğalanmalar martın ikinci həftəsində güclənib və martın 9-da "Brent" 119,5 dollara satılıb. Aprelin 8-də qiymət kəskin, təxminən 17,3 faiz azalaraq 90,40 dollar təşkil edib. "Brent"in qiyməti aprelin 30-da 126,41 dollara yüksəlib və münaqişənin başlanğıcından bəri ən yüksək səviyyəyə çatıb. Bu qiymət təxminən son 4 ildə ən yüksək səviyyə kimi qeydə alınıb. "Brent"in qiyməti aprel ayı ərzində 86-126 dollar arasında kəskin dalğalanmalar yaşayıb. May ayı ərzində qiymətlər 91-115 dollar arasında dəyişib.

**_Azərbaycanda təhsilverənlərin vahid geyim forması ilə bağlı hüquqi baza yaradılır. Belə ki, "Ümumi təhsil haqqında" qanuna nəzərdə tutulan dəyişikliklərə əsasən, dövlət ümumi təhsil müəssisələrində təhsilverənlərin işgüzar geyim üslubu ilə bağlı tələblərin müəyyən edilməsi təsbit olunub. Məsələyə münasibət bildirən təhsil eksperti Ramin Nurəliyev hesab edir ki, müəllimlər üçün vahid geyim standartlarının tətbiqi məktəblərdə peşəkar mühitin formalaşdırılması baxımından mühüm addımlardan biri ola bilər._**

# Məktəblərdə vahid geyim mədəniyyəti



## Təhsil

Onun fikrincə, dünyanın bir çox inkişaf etmiş ölkələrində, o cümlədən Türkiyədə tətbiq olunan bu təcrübə təhsil müəssisələrində nizam-intizamın gücləndirilməsinə xidmət edir. Ekspert bildirib ki, yeni qaydalar müəllimlər üçün konkret geyim standartlarının müəyyənləşdirilməsini nəzərdə tutur. Bu standartlar geyimin rəngi, forması, ölçüləri və ümumi görünüşü ilə bağlı tələbləri əhatə edə bilər. Onun sözlərinə görə, məqsəd müəllimlərin fərdiliyini məhdudlaşdırmaq deyil, məktəb mühitinə uyğun vahid peşəkar görünüş formalaşdırmaqdır.

R.Nurəliyev qeyd edir ki, uzun illərdir şagirdlərin vahid məktəbli formasında təhsil almasına baxmayaraq, bu məsələ ətrafında zaman-zaman valideyn və şagird narazılıqları müşahidə olunub. O hesab edir ki, müəllimlərin də eyni prinsiplə vahid geyim qaydalarına əməl etməsi məktəbdə daha ədalətli və bərabər yanaşmanın formalaşmasına kömək edə bilər.

Ekspertin fikrincə, vahid geyim forması yalnız zahiri görünüş məsələsi deyil, həm də məktəb daxilində sosial bərabərliyin və korporativ mədəniyyətin gücləndirilməsi vasitəsidir. Müəllimlərin eyni standartlara uyğun geyinməsi təhsil müəssisəsinin daha ciddi və təşkilatlanmış görüntü yaratmasına şərait yaradır. Bu isə həm şagirdlərdə, həm də valideynlərdə məktəbə qarşı məsuliyyət hissinin artmasına müsbət təsir göstərə bilər. R. Nurəliyev vurğulayır ki, özəl təhsil müəssisələrinin əksəriyyətində müəllimlər üçün geyim kodeksi artıq uzun illərdir tətbiq olunur və bu təcrübə özünü doğruldub. Onun sözlərinə görə, dövlət məktəblərində də oxşar yanaşmanın tətbiqi müəllim peşəsinin nüfuzunun artırılmasına, təhsil mühitində vahid idarəetmə prinsiplərinin möhkəmlənməsinə və peşəkar müəllim obrazının formalaşmasına töhfə verəcək.

Ekspert hesab edir ki, qanun layihəsinin qəbulundan sonra müvafiq qurumlar tərəfindən müəyyən ediləcək geyim standartları həm praktik, həm də müəllimlərin gündəlik fəaliyyətinə uyğun şəkildə hazırlanmalıdır. Çünki əsas məqsəd məhdudiyyət yaratmaq deyil, məktəblərdə vahid mədəniyyət və nizam-intizam mühitini daha da gücləndirməkdir.

■ **Mövzu ilə bağlı təhsil məsələləri üzrə ekspert Elçin Əfəndi də müəllimlər üçün vahid geyim standartlarının tətbiqini müsbət qiymətləndirib.**

Onun fikrincə, bu addım məktəblərdə daha səliqəli və peşəkar mühitin formalaşmasına xidmət etməklə yanaşı, sosial bərabərlik prinsipinin güclənməsinə də töhfə verəcək. Ekspert bildirib ki, bu günə qədər müəllimlər arasında geyim seçimi baxımından nəzərəçarpacaq fərqlər müşahidə olunurdu. Bahalı geyimlərə və aksessuarlara üstünlük verənlərlə daha sadə geyinən müəllimlər arasında görünən fərqlər bəzən sosial status göstəricisi kimi qəbul edilirdi. Vahid geyim formasının tətbiqi isə bu fərqlərin aradan qaldırılmasına və bütün müəllimlərin eyni standart çərçivəsində fəaliyyət göstərməsinə imkan yaradacaq. E.Əfəndinin sözlərinə görə, vahid geyim müəllim peşəsinin cəmiyyətdə daha aydın tanınmasına da kömək edə bilər. Belə ki, məktəb mühitində və ya ictimai yerlərdə müəllimlərin peşə mənsubiyyətini əks etdirən ümumi görünüş onların nüfuzunun və peşə kimliyinin daha qabarıq şəkildə hiss olunmasına şərait yaradır. Ekspert qeyd edir ki, bu təcrübə yalnız Azərbaycana xas deyil. Dünyanın bir çox inkişaf etmiş ölkələrində müəllimlər üçün ya vahid forma, ya da ciddi geyim kodeksi tətbiq olunur. Məqsəd təhsil müəssisələrində peşəkarlığı, intizamı və institusional mədəniyyəti gücləndirməkdir.

Bununla belə, Elçin Əfəndi hesab edir ki, təhsil sistemində əsas prioritet yalnız geyim məsələsi olmamalıdır. Onun fikrincə, müəllimlərin xarici görünüşü ilə bağlı standartların tətbiqi vacib olsa da, təhsilin keyfiyyətinin yüksəldilməsi, müəllimlərin peşəkar inkişafı, tədris metodlarının təkmilləşdirilməsi və şagird nailiyyətlərinin artırılması daha mühüm məsələlər olaraq qalır. Ekspert vurğulayıb ki, məktəblərdə vahid geyim standartlarının tətbiqi müsbət nəticələr verə bilər, lakin bu addım təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəlmiş daha geniş islahatların tərkib hissəsi kimi həyata keçirilməlidir. Onun qənaətincə, keyfiyyətli təhsil göstəricilərinin yüksəldilməsi uzunmüddətli perspektivdə həm müəllim nüfuzunun, həm də ölkənin insan kapitalının inkişafına daha böyük töhfə verəcək.

*"Dünyanın bir çox inkişaf etmiş ölkələrində, o cümlədən Türkiyədə tətbiq olunan bu təcrübə təhsil müəssisələrində nizam-intizamın gücləndirilməsinə xidmət edir*

*Bu günə qədər müəllimlər arasında geyim seçimi baxımından nəzərəçarpacaq fərqlər müşahidə olunurdu*

✍ **Sevinc**

# Bu il uçan qarışqalar, ötən il sarı böcəklər

***Son illər Bakıda müşahidə olunan həşərat artımı artıq, sadəcə təsadüfi yay mövzusu deyil, şəhərin ekoloji ritmində nəzərə çarpan dəyişiklik kimi görünür. Uçan qarışqaların kütləvi şəkildə çoxalması bu il diqqəti daha çox cəlb edir. Halbuki ötən il sarı böcəklərin, ondan əvvəl isə kəpənəklərin sayında oxşar artım müşahidə olunmuşdu. Ardıcıl olaraq fərqli növ həşəratların "pik dövrlər" yaşaması isə bir çox sualı gündəmə gətirir. Şəhər mühitində belə dalğavari dəyişikliklər, adətən, bir səbəblə izah olunmur.***



## Ekologiya

Temperatur rejimində qeyri-sabitlik, xüsusilə yaz və yayın keçid dövrlərində kəskin istiləşmə, yağıntıların qeyri-bərabər paylanması və rütubət səviyyəsinin dəyişməsi həşəratların çoxalma dövrlərinə birbaşa təsir göstərir.

Bu amillər onların həm yumurtadan çıxma sürətini, həm də yayılma miqyasını artırır. Uçan qarışqalar, adətən, bir koloniyanın reproduktiv mərhələsi ilə bağlı ortaya çıxır. Yəni bu, təkcə onların sayının artması deyil, eyni zamanda, yeni koloniyaların yaranması üçün təbii dövrün aktivləşməsi deməkdir. Şəhər mühitində istilik adaları effekti - asfalt və betonun gündüz yığıb gecə buraxdığı istilik bu prosesi daha da sürətləndirə bilir.

Digər tərəfdən, sarı böcəklərin və kəpənəklərin əvvəlki illərdə artması da ekosistemdə qida zəncirinin və bitki örtüyünün dəyişməsi ilə əlaqələndirilə bilər. Bitki örtüyündəki dəyişikliklər, park və yaşıllıq sahələrində aparılan yenilənmələr, həmçinin kənd təsərrüfatı zonalarından şəhərə doğru yayılan növlər bu dinamikanı gücləndirir.

Mütəxəssislərin ümumi yanaşmasına görə, belə "növbəli artım" halları çox vaxt ekosistemin özünü yenidən tənzimləməsi kimi qiymətləndirilir. Bir növün azalması digərinin çoxalmasına şərait yarada, yaxud iqlim dəyişiklikləri müəyyən növlərin mövsümi davranışını tamamilə dəyişə bilər.

Bakının son illərdə yaşadığı bu mənzərə isə təkcə həşəratların çoxalması deyil, şəhərin mikroiqlimində gedən daha geniş proseslərin kiçik bir göstəricisi kimi oxunur. Hər yeni mövsüm sanki təbiətin şəhərə göndərdiyi fərqli bir "siqnal" kimi ortaya çıxır.

■ **Ekoloq Ənvər Əliyevin sözlərinə görə, uçan qarışqaların son illərdə yenidən kütləvi şəkildə müşahidə olunması diqqət çəkən ekoloji hadisədir. Onun bildirdiyinə görə, təxminən 15-20 il əvvəl belə hallara daha tez-tez rast gəlinirdi, lakin sonrakı dövrdə bu proses xeyli zəifləmişdi.**

İndi isə bəzi bölgələrdə onların yenidən görünməsi müşahidə olunur və bu, əsasən iqlim və hava şəraitində baş verən dəyişikliklərlə izah edilir.

Mütəxəssis qeyd edir ki, xüsusilə kəskin soyuqlardan və güclü yağıntılardan sonra havanın birdən-birə istiləşməsi torpağın üst qatında temperaturun sürətlə yüksəlməsinə səbəb olur. Bu şərait isə uçan qarışqaların yumurtadan kütləvi şəkildə çıxması üçün əlverişli mühit yaradır. Nəticədə, kənd və rayon ərazilərində qısa müddət ərzində onların sayında nəzərəçarpacaq artım müşahidə edilir. Ə. Əliyevin fikrincə, bu həşəratlar külək axınları vasitəsilə də geniş ərazilərə yayıla bilir. Onların çox yüngül olması səbəbindən havada uzun müddət asılı vəziyyətdə qala bilməsi, hətta zəif meh və ya orta güclü küləyin belə onları bir yerdən başqa yerə aparması mümkündür. Bu da bəzi hallarda onların "kütləvi köçü" kimi görünməsinə səbəb olur.

Ekoloq vurğulayıb ki, belə təbii proseslər dövri xarakter daşıyır və həm temperatur dəyişiklikləri, həm də külək rejimi ilə sıx bağlıdır.

■ **Sanitariya və gigiyena üzrə ekspert Nurlan Məmmədovun fikrincə, uçan qarışqaların görünməsi onların koloniyalarında çoxalma mərhələsinin aktivləşdiyini göstərir.**

Buna görə də havada görünən həşəratların məhv edilməsi problemin əsas səbəbini aradan qaldırmır. Əsas diqqət yuvaların yerləşdiyi mənbə zonalara yönəldilməlidir. Ekspert bildirib ki, ev şəraitində profilaktik tədbirlər həlledici rol oynayır.

> "
>
> *Belə təbii proseslər dövri xarakter daşıyır və həm temperatur dəyişiklikləri, həm də külək rejimi ilə sıx bağlıdır*
>
> *Sanitar baxımdan ən zəif nöqtələr zirzəmilər, kanalizasiya xətləri və zibil konteynerləri hesab olunur*

Qida qalıqlarının açıq saxlanılmaması, mətbəxin təmiz saxlanması, rütubətin azaldılması və su sızmalarının aradan qaldırılması həşəratların cəlb olunmasını ciddi şəkildə azaldır. Eyni zamanda pəncərə və balkonlarda qoruyucu torların istifadəsi onların evə daxil olmasının qarşısını alır.

Onun sözlərinə görə, sanitar baxımdan ən zəif nöqtələr zirzəmilər, kanalizasiya xətləri və zibil konteynerləri hesab olunur. Bu sahələrdə mütəmadi təmizlik və dezinfeksiya aparılmadıqda həşəratların çoxalması üçün əlverişli mühit yaranır. Ekspert əlavə edir ki, kimyəvi mübarizə vasitələri tətbiq edilərkən diqqətli olunmalı, xüsusilə gel tipli preparatlar koloniyanın məhv edilməsi baxımından daha effektiv hesab edilməlidir.

✍ *Sevinc*

## HƏFTƏ REYTİNQ

### Həftənin REKORDU



2026-cı il Dünya Çempionatında maraqlı bir rekord qeydə alınıb. Portuqaliya millisinin kapitanı Kriştianu Ronaldo ilə Özbəkistan yığmasının futbolçusu Bəhruz Kərimov turnir tarixinin ən böyük yaş fərqi ilə eyni meydanda üz-üzə gəliblər. 41 yaşlı Ronaldo 18 yaşlı Kərimovdan 22 il 183 gün böyükdür. Bu göstərici DÇ tarixində eyni oyunda meydana çıxan iki futbolçu arasında indiyədək qeydə alınmış ən böyük yaş fərqidir.

### Həftənin QALİBİ



Türkiyədə "Survivor 2026" yarışmasının qalibi müəyyənləşib. Finalda Nagihan Karadere ilə üz-üzə gələn keçmiş futbolçu Mert Nobre mövsümün çempionu adını qazanıb. Final mübarizəsinin ilk raundunda rəqibini 8:1 hesabı ilə məğlub edən Mert Nobre həlledici üstünlük əldə edib. İkinci raund daha gərgin mübarizə şəraitində keçsə də, Nobre qələbəni əldən verməyib.

### Həftənin BORCLUSU



Nikol Paşinyanın Baş nazir seçildiyi 2018-ci ilin mayından indiyədək Ermənistanın dövlət borcu 110,6% artıb. 2018-ci il aprelin 30-na Ermənistanın dövlət borcu 6,87 milyard dollar (təxminən 11,679 milyard AZN), 2026-cı il aprelin 30-na isə 14,46 milyard dollar (təxminən 24,582 milyard AZN) təşkil edib. Məlumatlara görə, 8 il ərzində daxili borcun kəskin artımı müşahidə olunub. Belə ki, borc 1,26 milyard dollardan (təxminən 2,142 milyard AZN) 7,15 milyard dollara (təxminən 12,155 milyard AZN) çatıb, yəni 467,1% artıb.

### Həftənin İMTİNASI



Ukrayna Prezidenti Volodimir Zelenski "Ağ Qartal" ordenini Polşaya qaytarıb. Bu barədə Polşa Prezidenti Karol Navrotskinin mətbuat katibi Rafal Leskeviç bildirib. "Orden geri qaytarılıb. Bu gün biz onu prezident dəftərxanasından götürdük. Geri qaytarılmış orden saxlanılması üçün Mükafatlar və Təyinatlar İdarəsinə təhvil veriləcək. Konkret bu orden bundan sonra heç kimə təqdim olunmayacaq", - mətbuat katibi deyib.

### Həftənin İSTEFASI



Böyük Britaniyanın Baş naziri Kir Starmer vəzifəsindən istefa verərkən emosional anlar yaşayıb. O, vida çıxışı zamanı ailəsinə təşəkkür edib, səsi titrəyib və göz yaşlarını saxlaya bilməyib. Starmer çıxışında bundan sonra həyatının əsas prioritetinin ailəsi olacağını vurğulayıb. Vida nitqindən sonra Starmer həyat yoldaşını qucaqlayıb. Emosional anları əks etdirən görüntülər qısa müddətdə sosial şəbəkələrdə geniş yayılıb və böyük maraq doğurub.

### Həftənin QAYIDIŞI



Braziliya futbolunun əfsanəsi Ronaldinyo uzun illərdən sonra yaşıl meydanlara qayıdır. İtaliyanın C Seriyası təmsilçisi "Ravenna" 46 yaşlı sabiq ulduzun oyunçu kimi komandaya qoşulduğunu rəsmən açıqlayıb.

Məlumata görə, Ronaldinyo yeni komandasında 10 nömrəli formanı geyinəcək. O, transferdən sonra ilk açıqlamasında futbola qayıtdığı üçün həyəcanlı olduğunu bildirib.

✍ *Azad Əliyev*

# Neftçalada DOST filialı fəaliyyətə başlayıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən DOST xidmətləri şəbəkəsinin ölkə boyu genişləndirilməsi işlərinin davamı olaraq, Neftçala rayonunda DOST filialı fəaliyyətə başlayıb.**



Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev və Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov filialda yaradılan şəraiti və vətəndaşların qəbulu, onlara xidmətlərin göstərilməsi prosesini nəzərdən keçiriblər. Anar Əliyev DOST mərkəzlərinin yaradılmasının Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq son illər ölkəmizdə aparılan sosial islahatların mühüm nailiyyətlərindən biri olduğunu vurğulayıb. O, Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü olan DOST modelinin üstünlüklərini və beynəlxalq səviyyədə də yüksək qiymət aldığını bildirib. DOST konsepsiyası əsasında dövlət sosial xidmətlərinin əhaliyə "bir pəncərə"dən, müasir, çevik və şəffaf, vətəndaş məmnunluğuna uyğun göstərildiyi qeyd edilib. Neftçala şəhəri, Heydər Əliyev prospekti, giriş 76 ünvanında yerləşən filialın inzibati binası modern və konstruktivlik elementləri ilə müasir üslubda layihələndirilib.

2 mərtəbədən ibarət binanın ümumi sahəsi 535 kvadratmetrdir. 10 nəfər işçi heyətlə xidmət göstərəcək Neftçala DOST filialında gün ərzində orta hesabla 100-dək vətəndaşın qəbulu nəzərdə tutulur.

Nazir yeni filialda daim DOST konsepsiyası əsas tutulmaqla yüksək səviyyədə xidmətlərin göstərilməsi, müraciətlərdə əksini tapan məsələlərin həlli işlərinin vətəndaş məmnunluğuna uyğun yerinə yetirilməsi və s. barədə tapşırıqlar verib. İndiyədək Bakı və bölgələrimizdə 7 DOST Mərkəzi, 3 DOST filialı, 3 DOST məntəqəsi istifadəyə verilib.

# III Beynəlxalq Məqam Sənəti Forumunun açılışı olub

**Özbəkistan Respublikasının Namanqan şəhərində UNESCO və ICESCO-nun himayəsi altında təşkil olunan III Beynəlxalq Məqam Sənəti Forumunun təntənəli açılış mərasimi keçirilib.**




Açılış mərasimində Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimlinin rəhbərlik etdiyi nümayəndə heyəti də iştirak edib. Mədəniyyət Nazirliyindən məlumat verilib. Bildirilib ki, bir sıra ölkələrdən tanınmış musiqi xadimləri, ifaçılar, tədqiqatçılar və mədəniyyət sahəsi təmsilçilərinin qatıldığı forum iyunun 26-dək davam edəcək.

Forumda Şərq klassik musiqi irsinin mühüm qollarından hesab edilən məqam (muğam) sənətinin tarixi, müasir inkişaf istiqamətləri, onun qorunması və gələcək nəsillərə ötürülməsi məsələləri müzakirə olunur. 2018-ci ildə əsası qoyulan və iki ildən bir təşkil olunan Beynəlxalq Məqam Sənəti Forumu elmi-praktik konfransları, konsert proqramlarını, ustad dərslərini və yaradıcı müzakirələri özündə birləşdirən nüfuzlu beynəlxalq mədəni platforma kimi tanınır. Forumun əsas məqsədlərindən biri də Şərq musiqi irsinin zəngin ənənələrini qlobal miqyasda təşviq etmək, xalqlar arasında mədəni dialoqu gücləndirmək və yaradıcılıq əməkdaşlığını genişləndirməkdir. Azərbaycan nümayəndə heyətinin forumda iştirakı ölkəmizin zəngin musiqi irsinin beynəlxalq səviyyədə tanıdılması, Türk dünyasının ortaq mədəni dəyərlərinin təşviqi və mədəni diplomatiyanın inki\afı baxımından xüsusi əhəmiyyət daşıyır.

## GÜNÜN FOTOSU



ABŞ yığmasının rəngli azarkeşləri

"

## Azərbaycanda əmlak amnistiyası müzakirəsi

**Kamal Cəfərov,**
millət vəkili

Sənədsiz evlər probleminin həlli dövlət büdcəsinə əlavə gəlir gətirməklə yanaşı, vətəndaşların sosial rifahını da yaxşılaşdıra bilər.

⏩ Səh. 7

## STATİSTİKA




■ **"Hurun Global Rich List 2026" hesabatına görə, dünyada milyarderlərin sayı ilk dəfə 4 min nəfəri keçib.**

Əvvəlki illə müqayisədə 578 milyarder artımı qeydə alınıb. Hesabatın 15 il əvvəl dərc olunmasından bəri ən böyük illik artım - 4020 milyarder müəyyən edilib. Onların ümumi sərvəti 28 faiz artıb və siyahıya ilk dəfə 726 nəfər qoşulub.



⏩ Səh. 7

# Məktəblərdə vahid geyim mədəniyyəti